QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 078 (5798) **1 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "İslahatlara alternativ yoxdur"

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*

Səh 2



"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 82-ci kitabı çapdan çıxıb



4

Məcburi köçkünlərin və qaçqınların həyat şəraiti yüksəlir



5

ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası Azərbaycana dair növbəti illik hesabat yayıb




6

Əhali qrupu üzrə təbii qazın illik istehlak həcmi 500 kubmetr artırılıb



9

Erməni siyasi şüurunun cahilliyi: işğal olunan ərazini tərk etmək zəruriliyinin dərk edilməməsi



7

"Gənclərimizin dini ekstremizm bəlalarından qorunması vacibdir"



10

13

AXCP sədrinə 100 minlərlə qrantı kimlər ötürür?




14

Qənimət Zahid ermənilərə necə işləyir?




9

Qondarma rejimin ombudsmanı: Dağlıq Qarabağda işsizlik və yoxsulluğun səviyyəsi artır



# İlham Əliyev: “İslahatlara alternativ yoxdur”

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*



## “Son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur”



***Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. “İslahatlara alternativ yoxdur”, - deyən Prezident İlham Əliyev vurğuladı ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlətimizin başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu dedi. Qeyd etdi ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı:

“Bu ilin yanvar ayında 2018-ci ilin yekunlarını müzakirə edərkən mən əminlik ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi Fərman idi və onun icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacaq. Artıq vəsaitin verilməsi prosesi başlamışdır. Əlbəttə ki, islahatların davam etdirilməsi üçün biz çox ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək.

İlin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər bizim potensialımızı gücləndirir, əhali tərəfindən yüksək qiymətləndirilir və bizə əlavə maliyyə resursu əldə etmək üçün şərait yaradır. Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə - 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsini vergi sahəsində, 50 milyon manatdan çox hissəni isə gömrük sahəsində əldə etmişik. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox - 136 milyon manat vergilər toplaya bilmişlər. Bu, islahatların bariz nümunəsidir. Sahibkarlar da bilirlər ki, onlar dövlətin vergisini tam ödəməlidirlər. Şəffaflıq və yeni yanaşma nəticəsində biz birinci rübdə böyük məbləğdə əlavə vəsait əldə etdik. Əlbəttə, bu, imkan yaratdı ki, biz bu vəsaiti, ilk növbədə, sosial sahəyə yönəldə bildik.

Son illərdə həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Büdcə daxilolmalarının artımı əminəm ki, ilboyu müşahidə olunacaq. Çünki aparılan islahatlar və yeni yanaşma prinsipləri bunu deməyə əsas verir. Beləliklə, bizdə əlavə maliyyə resursu formalaşacaqdır.

İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir. Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir - 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb.

***Ardı Səh. 3***

# İlham Əliyev: “İslahatlara alternativ yoxdur”

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib*

Əvvəli Səh. 2



Biz burada da müsbət dinamikanı görürük. Çünki bizim əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır. Sərmayənin cəlb edilməsi əlbəttə ki, hər bir ölkə üçün çox önəmli məsələdir, o cümlədən bizim üçün. Əgər əvvəlki illərdə daha çox neftqaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı “Doing Business” hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Beləliklə, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək.

Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl, neftin qiymətinin kəskin, təqribən 4 dəfə düşməsi nəticəsində neft ixrac edən ölkələr böyük çətinliklərlə üzləşmişlər. O ölkələrdə milli valyuta qiymətdən düşdü, o cümlədən Azərbaycanda. Bu, qaçılmaz hal idi. Ancaq biz qısa müddət ərzində vəziyyəti sabitləşdirə bildik. 2016-2017-ci illərdə iqtisadi və makroiqtisadi sabitliyin təmin edilməsi üçün addımlar atıldı. Baxmayaraq ki, o illərdə inflyasiya yüksək səviyyədə idi. Ancaq biz vəziyyəti sabitləşdirə bildik və beləliklə, inkişaf üçün zəmin yaratdıq. Təbii ki, bizim iqtisadi və maliyyə imkanlarımız artdıqca, ilk növbədə, vətəndaşları narahat edən bu məsələni həll etdik, özü də ən yüksək səviyyədə. Bir neçə ölkədə bu məsələ ilə bağlı müəyyən addımlar atılmışdır, müqayisə aparmaq istəmirəm. Ancaq deyə bilərəm ki, bu məsələ ən genişmiqyaslı və vətəndaşları təmin edəcək şəkildə, ədalətli şəkildə Azərbaycanda həll olunub. Nə üçün? Ona görə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz Azərbaycan vətəndaşının rifahı üçün əlimizdən gələni edirik. Beləliklə, 100 minlərlə insanı narahat edən bu məsələ də uğurla həll olundu. Yəni, kompensasiyaların verilməsi prosesi başlamışdır və əminəm ki, qısa müddət ərzində başa çatacaqdır.

Digər məsələ vaxtilə tikilmiş, ancaq istismara qəbul edilməmiş evlərlə bağlı idi. Çoxmənzilli binalarda yaşayan vətəndaşlar əziyyət çəkirdilər, çünki o binalarla bağlı sənədləşmə işləri aparılmamışdır, müəyyən çatışmazlıqlar var idi. Ona görə bu məsələ ilə bağlı da Fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesi başlamışdır. Mən bu yaxınlarda göstəriş vermişdim ki, bu işlər daha da sürətlə getsin və o qüsurlar tezliklə aradan qaldırılsın, bu məsələ də öz həllini tapsın.

> “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik”

Beləliklə, görülən bu işlər nəticəsində üç milyon insan imzalanmış fərmanlardan bu və ya digər formada faydalanıb, vətəndaşların maddi vəziyyəti yaxşılaşıb, onları narahat edən problemlər öz həllini tapıb. Gələcəkdə biz bu istiqamətdə addımlarımızı atacağıq. Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik var. Ölkə uğurla inkişaf edir.”

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlətimizin başçısı bildirdi ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

“Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur”, - deyə Prezident bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. “Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək”, - deyə Prezident vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək:

“Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək”.

Dövlətimizin başçısı vurğulayıb ki, minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirdi. Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin etdi ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə etdi.

# "Azərbaycan ABŞ ilə ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətindədir"

*Prezident İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavinini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kenti qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi, əlaqələrimizin siyasi, iqtisadi, ticarət, enerji, təhlükəsizlik və digər sahələrdə genişləndiyini vurğuladı. Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətində olduğunu deyən dövlətimizin başçısı son dövrlər ərzində ölkələrimiz arasında qarşılıqlı təmasların və tədbirlərin əhəmiyyətini vurğuladı və bu müsbət dinamikanın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Keçən ilin oktyabrında Azərbaycana səfərini xatırlayan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ikitərəfli əlaqələrimizdə olan bu müsbət dinamikanı davam etdirmək məqsədilə ölkəmizə səfər etdiyini dedi, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ölkəmizə səfəri və onun ardınca aparılan danışıqların əhəmiyyətini vurğuladı.

Görüşdə dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın "Cənub Qaz Dəhlizi" layihəsinə göstərdiyi dəstəyi yüksək dəyərləndirdi.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent, öz növbəsində, Azərbaycanın Əfqanıstanda Qətiyyətli Dəstək Missiyası çərçivəsində NATO-ya üzv və tərəfdaş dövlətlər, o cümlədən ABŞ üçün təmin edilən tranzit-logistika dəstəyinə görə minnətdarlığını ifadə etdi. Söhbət zamanı ölkəmizin demokratik inkişafı, məhkəmə-hüquq sistemi və sosial-iqtisadi sahədə aparılan islahatlara dair fikir mübadiləsi aparıldı.

# Elmar Məmmədyarov Parlamentlərarası İttifaqın prezidenti ilə görüşüb

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Parlamentlərarası İttifaqın (PAİ) prezidenti Qabriela Kuevas Barron ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Q.Kuevas Barron ölkəmizə bu növbəti səfəri zamanı Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində keçirilmiş tədbirlərdə iştirak etdiyini bildirərək, bu mühüm dünya miqyaslı idman yarışının yüksək peşəkarlıqla təşkil edilməsinin şahidi olduğunu söyləyib. Onun qənaətinə görə, bu cür yaddaqalan hadisələr Azərbaycanın dünyada nüfuzunun daha da artırılmasına xidmət edən gözəl fürsətdir.***



Nazir Elmar Məmmədyarov Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında sıx təmaslara toxunaraq, dünya parlamentlərinin nümayəndələrini birləşdirən bu qurumda Latın Amerikası ölkələrinin fəal iştirakını məmnuniyyətlə qeyd edib. Azərbaycanın cari ildə Qoşulmama Hərəkatında sədrliyə başlayacağını söyləyən nazir Elmar Məmmədyarov Qabriela Kuevas Barronu bununla bağlı Bakıda keçiriləcək Zirvə toplantısına dəvət edib.

Tərəflər Azərbaycan ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə ümidvar olduqlarını vurğulayaraq, Latın Amerikası bölgəsində cərəyan edən proseslər barədə fikir mübadiləsi aparıblar. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 82-ci kitabı çapdan çıxıb

Bütün işlərimizin, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı yaxşı yaşamalıdır və yaxşı yaşamaq üçün imkan olmalıdır. Ona görə də sosial məsələlərin həlli, xüsusilə təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə bizim üçün prioritet olubdur. Son illərdə 3000-dən çox məktəb, 600-dən çox tibb mərkəzi yaradılıb və onlar bu gün insanlara xidmət göstərir. Eyni zamanda, bölgələrdə yaradılmış şərait böyük şəhərlərə miqrasiyanın da qarşısını alır. Biz artıq bunu da görürük ki, əvvəlki illərdə Bakıya bütün bölgələrdən müşahidə olunan miqrasiya indi azalıbdır, eyni zamanda, əks proses də başlayıb. İndi insanlar şəhərlərdən kəndlərə qayıdırlar. Çünki kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılıb.




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 82-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Lənkəranda keçirilmiş respublika müşavirəsində söylədiyi nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin avqust ayından oktyabradək olan dövrü əhatə edir.

Çoxcildliyin 82-ci kitabında dövlətimizin başçısının BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün ABŞ-a səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlərə dair materiallar, sessiyanın açılışında çıxışının mətni, İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfəri barədə informasiyalar yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitaba Prezident İlham Əliyevin Gürcüstan, Türkiyə, Koreya Respublikası, Rusiya, Fransa, Vyetnam və digər ölkələrin, ATƏT-in, NATO-nun, habelə Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Valyuta Fondunun, Bakıda keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, nümayəndə heyətlərini qəbul etməsinə dair materiallar da daxil edilib.

Oxucular bu nəşrdə dövlətimizin başçısının "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans iştirakçılarına məktubu, "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzrə yeni sazişin imzalanması mərasimində, Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş tədbirdə söylədiyi nitqlərin mətnləri, habelə müxtəlif dövlətlərin başçılarına məktubları ilə tanış ola bilərlər.

Bu cilddə, həmçinin Prezident İlham Əliyevin Cəlilabad, Lənkəran, Neftçala, Salyan, Qobustan, Şamaxı rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə dair informasiyalar, bölgələrdə iqtisadiyyat, nəqliyyat, sosial infrastruktur layihələrinin və məişət obyektlərinin açılışlarında etdiyi çıxışların mətnləri, Bakıda orta məktəblərdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı barədə materiallar toplanıb. Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 82-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Məcburi köçkünlərin və qaçqınların həyat şəraiti yüksəlir

*Mehriban Əliyeva: "...qaçqın və köçkün həyatı sürməyə məcbur olan soydaşlarımızın problemlərinin həlli bizim ən böyük vəzifəmizdir"*

***Sürətli sosial-iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanın əldə etdiyi uğurlar, tərəqqi hər bir vətəndaşın həyatında hiss olunur və insanların rifah halı günü-gündən yaxşılaşır. Əhalinin maddi gəlirlərinin davamlı şəkildə çoxalması, əməkhaqqı və pensiyaların, eləcə də, büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sferada vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm amillərdir. Azərbaycan məcburi köçkünlərin və qaçqınların sosial problemlərinin həllini də daim ön planda saxlayır.***

Aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Nəsimi rayonunda Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşan məcburi köçkünlərlə görüşü zamanı vurğuladığı kimi: "Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Son illərdə mən görürəm ki, müsbət dinamika var. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə 1 il ərzində 6 min mənzil təhvil veriləcək".



## 2018-Cİ İLDƏ 5903 MƏCBURİ KÖÇKÜN AİLƏSİ YENİ MƏNZİLLƏRƏ KÖÇÜRÜLÜB

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə 2017-ci ilin martın 9-da keçirilən müşavirə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuşdur. Həmin müşavirədə Mehriban xanım Əliyeva görülən işlərlə nəzər salınmaqla yanaşı, mövcud problemlərin də olduğunu da diqqət çəkmişdir. Belə ki, bu gün respublika üzrə 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac olduğunu bildirmişdir. Həmin dövrdə respublika üzrə 636 min məcburi köçkündən 217 min nəfəri Bakı şəhərində müvəqqəti məskunlaşırdı. Paytaxtımızda kompakt məskunlaşma obyektlərində 41 min ailə, o cümlədən, 14 min ailə yataqxanalarda, 5 min ailə ictimai binalarda, 4 min ailə sanatoriya, pansionat, turbazalarda, daha 4 min ailə tikintisi yarımçıq binalarda, 2 min ailə təhsil müəssisələri və uşaq bağçalarında yaşayıdı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva diqqətə çatdırılan mövcud problemlərin, qeyd olunan məsələnin qısa zamanda həll etmək üçün birgə çalışmağın vacibliyini bildirmişdi: "Bu gün bizim qarşımızda duran əsas məqsəd dörd min köçkün ailəsini yeni mənzillə təmin etməkdir. Söhbət Bakı və Sumqayıt şəhərlərində məskunlaşan köçkün ailələrindən gedir... Biz işlərimizi iki istiqamətdə qurmalıyıq. Yeni mənzillər, yeni binalar tikilməlidir və inşa olunan yeni binalar keyfiyyət standartlarına tam cavab verməlidir".

Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

## "BİZ GƏRƏK ÖZÜMÜZ ÜÇÜN PROQRAM YARADAQ Kİ, BÜTÜN BU MƏSƏLƏLƏRİ ARDICIL OLARAQ HƏLL EDƏK VƏ BÜTÜN SOYDAŞLARIMIZI NORMAL YAŞAYIŞ ŞƏRAİTİ İLƏ TƏMİN EDƏK"

Nəsimi rayonunda Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşan məcburi köçkün ailələrinin yaşayış şəraiti ilə tanış olan Mehriban xanım Əliyeva "Mən sizin üçün əlimdən gələn hər şeyi edəcəyəm"- deyərək onların problemlərini öyrənmək məqsədi olduğunu bildirib: "Sizə söz verirəm, həm cənab Prezident, həm mən daim sizin yanınızdayıq. Mən bilirəm ki, siz yararsız binalarda çətin vəziyyətdə yaşayırsınız. İnanın mənə, tapşırığımla yeni yol xəritəsi hazırlanır. Bütün yataqxanalarda, bütün pansionatlarda həm nazirliyin, həm Heydər Əliyev Fondunun əməkdaşları, həm də Regionların İnkişafı Fondunun əməkdaşları bir-bir gəzəcəklər, araşdıracaqlar, insanlarla görüşəcəklər, bütün problemləri öyrənəcəklər, lazım gəlsə özüm də bütün pansionatları gəzəcəyəm".

Dövlətimizin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir. Mehriban xanım Əliyeva görüşü zamanı onların çox qısa bir zamanda normal ev şəraiti ilə təmin olunacaqlarını bildirib: "Mən xüsusi olaraq gəlmişəm ki, sizin yaşayış probleminiz qısa bir zamanda həll olunsun, normal yaşayış şəraiti təmin edilsin. Bilirsiniz, həm Azərbaycan dövləti, həm Prezident, həm də şəxsən mən, bütün bu problemlərlə gündəlik fəaliyyətimizdə məşğul oluruq. Çıxış yolları da var. Bu günə qədər çox işlər görülüb, 300 mindən çox qaçqınımız, məcburi köçkünümüz mənzillə, evlə təmin olunub. Amma yenə də bu problem var. Biz gərək özümüz üçün proqram yaradaq ki, bütün bu məsələləri ardıcıl olaraq həll edək və bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə təmin edək. Mən bu yolda əlimdən gələn hər şeyi etməyə hazıram".



## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK DİPLOMATİK SİYASƏTİ, QƏTİYYƏTİ NƏTİCƏSİNDƏ TORPAQLARIMIZ GERİ ALINACAQ

Qaradağ rayonunda məcburi köçkünlər üçün salınan "Qobu Park" yaşayış kompleksində olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva burada da qəsəbə sakinləri ilə görüşüb, onların müraciətlərini dinləyərək, onların həlli istiqamətində tapşırıqlarını verib. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində daim ardıcıl işlər aparıldığını və bu qəbildən olan soydaşlarımızın problemlərinin həmişə dövlətin diqqət mərkəzində dayandığını vurğulayıb: "Qarabağ problemi ölkəmizin ən böyük problemidir və daim Prezidentin diqqət mərkəzindədir. Bu münaqişə və torpaqlarımızın işğal altına düşməsi nəticəsində qaçqın və köçkün həyatı sürməyə məcbur olan soydaşlarımızın problemlərinin həlli bizim ən böyük vəzifəmizdir. Buraya gəlməmişdən əvvəl Bakıda yataqxanada məskunlaşmış soydaşlarımızla görüşdüm. Çox acınacaqlı, təhlükəli vəziyyətdə yaşayırlar. Onların hamısını normal ev şəraiti ilə təmin etmək dövlətimizin, Prezidentimizin, şəxsən mənim ən vacib vəzifəmizdir. Bu istiqamətdə bütün lazımi işlər görülüb və görülür. İndiyədək 300 mindən çox soydaşımız evlə təmin olunub, 103 yeni qəsəbə, şəhərcik salınıb. Şəhərcik təkcə evlərdən ibarət deyil, onu yaratmaq üçün infrastruktur - məktəblər, bağçalar tikilib, su, qaz, işıq xətləri çəkilib, asfalt yollar salınıb. Amma, yenə də hələ ki, ağır vəziyyətdə yaşayan insanlarımız var və onların həyatının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik. Bu gün belə bir gözəl qəsəbədə olmağıma görə çox şadam. Xatırlayıram ki, buranın açılışında bərabər iştirak etmişdik. Görürəm ki, siz çox gözəl, rahat şəraitdə yaşayırsınız. Arzum odur ki, hər bir qaçqın və köçkün məhz belə şəraitdə yaşasın. Biz buna nail olacağıq".

Heç şübhəsiz ki, bütün bunlar məcburi köçkün və qaçqınlar üçün yaradılan müvəqqəti yaşayış üçün gözəl şəraitdir. Azərbaycan Prezidenti İlham Əliyevin böyük diplomatik siyasəti, qətiyyəti nəticəsində torpaqlarımız geri alınacaq. Azərbaycanın tarixində böyük qələbə olan Aprel döyüşləri - Lələtəpənin, Talış yüksəkliklərinin azad olunması dünyaya bir daha Azərbaycan Ordusunun, Azərbaycan dövlətinin qüdrətini göstərdi. Bu qələbə bütün dünyaya bir mesaj oldu. Hər bir Azərbaycan övladı torpaqlarımızı düşməndən azad etməyə hər zaman hazırdır.

Təbii ki, görülən işlər, davamlı səylər nəticəsində, ölkəmizin ərazi bütövlüyü yaxın zamanda bərpa ediləcək. İşğaldan azad olunacaq ərazilərdə Azərbaycan dövlətinin öz imkanları hesabına həyat tamamilə yenidən qurulacaq, məcburi köçkün olan soydaşlarımız öz ata-baba yurdlarına qayıdaraq, doğma torpaqlarında yaşayacaqlar. Bu zaman onlar yenə dövlətin xüsusi qayğısı ilə əhatə ediləcək və bütün sosial problemləri öz həllini tapacaq. Mehriban xanım Əliyeva "İnşallah Qarabağda biz eyni belə gözəl mənzillərdə görüşək", - deyərək məcburi köçkün və qaçqınlarla sağollaşıb.

Buna hər kəs inanır və Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dağlıq Qarabağ münaqişəsi: Azərbaycanın mövqeyi dəyişməzdir

*İlham Əliyev: "Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir"*

***"Sülh və təhlükəsizlik haqqında danışarkən, Ermənistan və Azərbaycan arasında olan münaqişəni qeyd etmək istəyirəm. Təəssüflər olsun ki, uzun illər, 25 ildən çox müddət ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır".***

Bunu Prezident İlham Əliyev aprelin 26-da Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda çıxışı zamanı deyib.

Dövlət başçısı vurğulayıb ki, işğal nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib: "İnsanlarımız etnik təmizləməyə məruz qalmışdır və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir. Bu, təkcə bizim ölkə üçün yox, regional sabitlik və sülh üçün ciddi bir problemdir. Ermənistan və Azərbaycan arasında olan münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir".



## Mövqeyini müəyyənləşdirə bilməyən Ermənistan

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasəti nəticəsində diplomatik cəbhədə əhəmiyyətli uğurlar əldə edilib. Lakin Ermənistanın nə əvvəlki prezidenti, nə də bu günükü baş naziri Nikol Paşinyan münaqtşə ilə bağlı konstruktiv qərarlar verməyə qadir deyil. Yeni işğalçı ölkə münaqişənin həlli ilə bağlı ancaq ziddiyyətli bəyanatlar verməklə, danişiqların formatının dəyişdirilməsi haqda fikirlər səsləndirməklə məşğuldur. Belə ki, martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüşün keçirilməsi bir daha təsdiq edir ki, danışıqların formatı dəyişməz qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar yalnız Azərbaycan Respublikası və Ermənistan arasında aparılır. Ermənistan rəhbərliyi bundan öncə danışıqların formatının dəyişdirilməsinə dair məntiqsiz və absurd fikirlər səsləndirərək manipulyasiyaya yol verirdi. Amma Azərbaycan buna imkan vermədi, işğalçı ölkə rəhbərliyinin danışıqları pozmaq və məsuliyyətdən yayınmaq cəhdləri baş tutmadı.

Bu görüşün keçirilməsi və danışıqların formatının dəyişməz qalması Azərbaycanın növbəti diplomatik uğurudur. Azərbaycanın mövqeyi qəti və birmənalıdır: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı, Ermənistan qoşunları ölkəmizin işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

Əgər erməni tərəfi yenə torpaqlarımızı işğal etməyə cəhd edərsə, yenə də, 2016-cı il aprel döyüşlərində aldığı real cavabını alacaq. Çünki birmənalı mövqe ondan ibarətdir ki, erməni ordusu Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməz.

**RƏFİQƏ HÜSEYNOVA**

# ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası Azərbaycana dair növbəti illik hesabat yayıb




***ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (USCİRF) Azərbaycana dair növbəti illik hesabat yayıb. Qeyd olunmalıdır ki, həmin Komissiya öz fəaliyyətində bir sıra ölkələrə qarşı qərəzli yanaşma ilə seçilir. Ötən illərdə olduğu kimi, bu il də hesabatda Azərbaycana dair bəzi qeyri-obyektiv məqamlar öz əksini tapıb. Lakin, əvvəlki illərdən fərqli olaraq, Komissiyanın 9 üzvündən biri, Xristian Liderləri Konqresinin sədri, yevangelist icmasını təmsil edən Coni Mur bu qərəzli yanaşma ilə razılaşmayaraq öz xüsusi rəyini açıqlayıb və bu mövqe hesabata daxil edilib.***

Coni Mur Azərbaycanın məhz dini tolerantlığa görə tanındığını, burada müxtəlif məzhəblər və dinlərin nümayəndələrinin qarşılıqlı hörmət şəklində, tam azad və təhlükəsiz şəraitdə birgə yaşayıb, ibadət etdiklərini vurğulayıb. O, hökumətin dini azlıqlarla məşğul olan beynəlxalq qurumların müraciətlərinə çox məsuliyyətlə yanaşdığını müşahidə etdiyini bildirib. Həmçinin ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyasının üzvü Azərbaycanın yerləşdiyi coğrafi məkanı nəzərə alaraq, dini azlıqlarla məşğul olan beynəlxalq qurumların hökumətin zorakı dini ekstremizm və milli təhlükəsizliklə bağlı narahatlıqlarını nəzərə almalı olduqlarını vurğulayıb. Sonda o, Ermənistanla Azərbaycan arasında sülhün tezliklə əldə olunmasının zəruriliyini qeyd edib.

C.Murun sözügedən prinsipial və obyektib mövqeyi USCİRF-in illik hesabatının əlavəsi kimi dərc edilib. Məlumat üçün qeyd etmək istərdik ki, C.Mur ötən ildə ABŞ-dan gələn bir qrup dini xadimlərin tərkibində ölkəmizdə səfərdə olub və bilavasitə yerində mövcud vəziyyətlə tanış olmaq imkanı əldə edib.

# İnam Kərimov: Azərbaycan və Türkiyə kənd təsərrüfatı sahəsində böyük potensiala malik ölkələrdir



Azərbaycan və Türkiyə kənd təsərrüfatı sahəsində böyük inkişaf yolu keçiblər. Bu sahədə əməkdaşlıq əlaqələrinin genişlənməsi maraqlarımızı tam əks etdirir. Bunu AZƏRTAC-a açıqlamasında aprelin 29-da İzmirdə Azərbaycan-Türkiyə Kənd Təsərrüfatı İcra Komitəsinin 9-cu iclasında iştirak edən kənd təsərrüfatı naziri İnam Kərimov söyləyib.

İclasda əməkdaşlığa dair səmərəli müzakirələrin aparıldığını diqqətə çatdıran nazir deyib: "Azərbaycan və Türkiyənin birgə görəcəyi işləri müzakirə etdik. İki qardaş ölkənin modelləri əsasında nümunəvi təsərrüfatların yaradılmasına dair səmərəli fikir mübadiləsi apardıq. O cümlədən bitkiçilik sahəsində məhsuldarlığın artırılması, pambıqçılığın inkişafı istiqamətində birgə əməkdaşlığı, həmçinin kənd təsərrüfatına dair təhsil müəssisələrində əlaqələrin genişləndirilməsini prioritet məsələlər kimi dəyərləndirdik. Azərbaycan və Türkiyə bu sahədə böyük potensiala malik ölkələrdir. İmkanlardan səmərəli istifadə etmək əsas hədəfimizdir".

# "I rübün yüksək göstəriciləri hər kəsin həyatında öz nəticəsini göstərir"

"Prezident İlham Əliyevin düzgün daxili və xarici siyasəti nəticəsində Azərbaycanın inkişafı durmadan artır. 2019-cu ilin I rübünün yüksək göstəriciləri təkcə statistika ilə deyil, eyni zamanda hər bir kəsin şəxsi həyatında öz nəticəsini göstərir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. O bildirib ki, ilin əvvəlindən başlayaraq əhalinin bütün təbəqələrinin əmək haqlarının, pensiyalarının, təqaüdlərinin, müavinətlərinin artması, sosial xarakterli bir neçə iri masştablı layihələrin həyata keçirilməsi, sahibkarlığın inkişafı ilə bağlı dövlət başçısı tərəfindən vaxtaşırı verilən sərəncamların hamısı iqtisadi inkişafı, sosial vəziyyətin yaxşılaşmasına, insanların daha güvənli yaşamasına səbəb olur.

A. Mirzəzadə söyləyib ki, Azərbaycan bu inkişafa öz daxili resursları və özünün imkanları hesabına əldə edir: "Xarici təcrübəni öyrənsək də, xarici mütəxəssisləri, ekspertləri dəvət etsək də, amma bununla belə ayrı-ayrı sahələrin inkişafı öz mütəxəssislərimiz tərəfindən həyata keçirilir. Bütün sahələr üzrə çox ciddi nəticələr var".



Azərbaycanda qeyri-neft sektorunun sürətlə artdığını deyən deputat qeyd edib ki, bunu həm paytaxtda, həm də regionlarda görmək olar: " Bunu həm ənənəvi Azərbaycan iqtisadiyyatı, həm də ölkəmiz üçün yeni olan sahələrdə görmək mümkündür. Həmçinin Azərbaycanda beynəlxalq tədbirlərin vaxtaşırı keçirilməsi də, ölkəmizin həm siyasi nüfuzunu artırır, həm də iqtisadiyyatımızın cəlb ediciliyini yüksəldir. Heç bir şübhə yoxdur ki, ilin ilk rübündə götürülən yüksək temp bütün il boyu davam edəcək və əvvəlki illərdə olduğu kimi 2019-cu ili uğurla başa vuruluacaq".

***Ermənistanda Nikol Paşinyanın komandasının hakimiyyətə gəlməsi ilə erməni cəmiyyəti müəyyən real dəyişikliklərə ümid edirdi. Proseslər göstərir ki, onlar yenə yanılırlar. Yeni hakimiyyət də əvvəlkilər kimi reallığı ört-basdır etməklə hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllində özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq vurğulayırlar. Ancaq əsas məsələ odur ki, bu sadə həqiqəti dərk etməyə erməni siyasi şüuru qabil deyil. Həmin aspektdə münaqişənin həlli məsələləri üzərində bir qədər geniş dayanmaq istərdik.***




# Erməni siyasi şüurunun cahilliyi:

# işğal olunan ərazini tərk etmək zəruriliyinin dərk edilməməsi

## Faktların təhrifi: kazimirovların zavallı durumu və reallıqlar

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsi perspektivi ilə bağlı ekspertlərin analizləri davam edir. Nikol Paşinyanın Dağlıq Qarabağdakı terrorçu-separatçıların da müzakirələrdə müstəqil tərəf kimi iştirak etməsi məsələsini gündəmə gətirməsi ilə bir sıra çətinliklər meydana çıxmışdı. Ancaq Azərbaycan rəhbərliyinin prinsipial və qətiyyətli, beynəlxalq hüquq normalarına və beynəlxalq təşkilatların sənədlərinə əsaslanan mövqeyi sayəsində Ermənistanın bu süni hoqqası da baş tutmadı. Təbii ki, bundan Ermənistanın yeni hökuməti çox pis vəziyyətə düşdü. Ondan çıxmaq üçün də müəyyən manevrlər etməkdədir.

İndi maraqlı bir mərhələ başlayıb. Konkret olaraq, beynəlxalq ictimaiyyət N.Paşinyanın bu absurd, qərəzli, birtərəfli, Ermənistanın təcavüzkarlığına haqq qazandırmağa xidmət edən "təklifini" qiymətləndirməkdədir. Rusiyada, Avropada, ABŞ-da ekspertlər və siyasətçilər həmin mövzu ilə bağlı fikirlərini ifadə edirlər. Onların hamısını bir məqam birləşdirir: danışıqların formatını dəyişmək mümkün deyildir!

Ancaq təəccüblüdür ki, bəzi "siyasətçilər" və "ekspertlər" təcavüzkarın bu təklifinə haqq qazandırmağa cəhd edilər. Onlardan biri də ATƏT-in Minsk qrupunun keçmiş həmsədrlərindən olan Vladimir Kazimirovdur. Bu şəxs "Regnum"da dərc etdirdiyi məqalədə münaqişənin həllində "dqr"in iştirak edib-etməməli olması ilə bağlı fikir bildirməyə çalışıb (bax: Doljen li Karabax uçastvovatğ v pereqovorax? / Regnum.ru, 22 aprel 2019).

Faktları təhrif etməklə V.Kazimirov həm erməni işğalına haqq qazandırmağa çalışır, həm də Dağlıq Qarabağdakı xunta rejiminin danışıqlarda iştirak etməsinin zəruri olduğu haqqında sərsəm tezislər irəli sürür. Bu zaman, o, hətta adi diplomatik etiketdən belə kənara çıxaraq, Azərbaycanın işğala qarşı savaş aparmasını "aqressiya" adlandırmağa cəhd edir.

Daha qəribəsi odur ki, özünü təcrübəli diplomat hesab edən V.Kazimirov adi gözlə görülə bilən qərəz nümayiş etdirir, sənədlərin məzmununu təhrif edib çox yanlış nəticələr çıxarır. Bütün bu məqamlar haqqında Azərbaycan parlamentinin deputatı Mixail Zabelin "Regnum"da dərc olunan məqaləsində aydın məntiqlə və sadə dillə yazaraq V.Kazimirovun süni məntiqini, faktları təhrif etməsini və çıxardığı nəticələrin reallığa uyğun olmadığını sübut edib (bax: Poziüiə Azerbaydjana ostaetsə tverdoy i posledovatelğnoy - pereqovorı v ix nıneşnem formate doljnı prodoljatğsə / Regnum.ru, 24 aprel 2019).

Başqa bir maraqlı fakt da N.Paşinyanın Rusiya mətbuatına Ermənistan-Rusiya münasibətləri ilə bağlı verdiyi müsahibədə Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda iştirakı məsələsini yenə də qabartmağa çalışmasıdır. Baş nazirin məntiqinə görə, "Dağlıq Qarabağ xalqının iştirakı olmadan münaqişəni necə həll etmək olar?". Ancaq bu ifadə altında yalnız Azərbaycanın həmin bölgəsində qanunsuz qurum yaradan bir qrup separatçını nəzərdə tutmaqla N.Paşinyan yenə də yanlış bir mövqe tutmuş olur. Azərbaycan tərəfi həmin bölgənin azərbaycanlı icması ilə yanaşı, erməni icmasının da müəyyən mərhələdə prosesdə iştirak edə biləcəyini istisna etmir. Lakin rəsmi İrəvanın işğal faktının üstündən sükutla keçərək, "Arsax" adı altında yalnız bölgədə məskunlaşmış terrorçu-separatçıları nəzərdə tutması nəinki beynəlxalq hüquqa, heç adi etik qaydalara belə uyğun deyil.

Belə ikiüzlülük və yalançılıqla ən kiçik münaqişəni belə həll etmək mümkün deyil. Bütün dünya bilir ki, Ermənistan havadarlarının birbaşa yardımı ilə Azərbaycan torpaqlarını işğal edib və münaqişə həmin məqamdan başlayıb. Bu səbəbdən onun həllinə işğalçıların zəbt etdikləri torpaqlardan qeyd-şərtsiz çəkilməsi ilə başlamaq olar. Yalnız bundan sonra digər məsələləri müzakirə etmək mümkündür. İşğal ərazisindən aqressorun çıxmadığı halda hansısa həll variantından danışmaq imkansızdır. Bu nəticə Madrid prinsiplərindən, Helsinki Yekun Aktının maddələrindən, BMT-nin və digər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qəbul etdikləri sənədlərdən birbaşa irəli gəlir.

## Ədalətin bərpası: sadə həqiqətlərin qəbul edilməsi şərti

Deməli, N.Paşinyanın başlanğıc kimi təqdim etməyə çalışdığı vəziyyət reallıqda işğalın son mənzərəsidir və bu mənada dəyişməlidir. Həmin dəyişiklikdən sonra yaranacaq mənzərə başlanğıcdır. Təcavüzün nəticəsini qanuniləşdirmək müzakirələrin məqsədi ola bilməz. Əksinə, həmin nəticələrin aradan qaldırılması əsas məqsəddir. Ona çatandan sonra barış və ya sülhdən danışmaq mümkündür.

Bütün bunlar Ermənistanın münaqişənin həlli ilə bağlı hazırda tutduğu mövqe barədə müəyyən təsəvvür əldə etməyə imkan yaradır. Hər şeydən öncə, bir daha aydın olur ki, rəsmi İrəvan problemə səmimi yanaşmır. Ermənistanın sosial-iqtisadi vəziyyətinin bərbad olaraq qalması və yeni hakimiyyətin real addım ata bilməməsi ictimai rəyi başqa məsələlərə yönəltməyi tələb edir. Maraqlıdır ki, bu barədə N.Paşinyandan müsahibə götürən erməni jurnalist açıq deyib (bax: Nikol Paşinən: "Mı predlaqaem Azerbaydjanu povestku mira, a ne povestku voynı" / Nezavisimaə qazeta", 24 aprel 2019).

Konkret olaraq jurnalist "Ermənistana parlaq layihələr həyata keçirmək üçün sərmayələr çatışmır" kontekstində sual verir. N.Paşinyan isə bunun belə olmadığını sübut etmək üçün heç bir konkret nümunə gətirə bilmir. O, ümumi bəlağətli ifadələr işlədir, lakin "bu qədər sərmayə və bu layihə" fikri yoxdur. Çünki reallıqda Ermənistana iri sərmayə qoyan yoxdur və bu kvaziölkənin heç bir dəyərli proyekti yoxdur. Təbii ki, belə bir vəziyyət insanlardan indiki hakimiyyətə inamsızlığı artırır. Bu səbəbdən də N.Paşinyan iqtisadiyyatda edə bilmədiyi populizmi münaqişə ilə bağlı etməyə cəhd göstərir.

Ancaq onun bu sferada manevr imkanları çox məhdudlaşıb. Rusiya, Avropa və ABŞ ekspert dairələrində rəsmi İrəvanın absurd mövqeyi haqqında açıq yazırlar (bax: məs., Stephen Blank. How to resume a war / "The Washington Times", 21 aprel 2019). Müəllif aydın ifadə edir ki, Ermənistan işğal etdiyi torpaqlardan çəkilmək əvəzinə müxtəlif bəhanələr uydurur, bununla da problemin sülh yolu ilə həllinə ciddi zərbə vurur. Məsələ danışıqlar formatının dəyişməsi ilə deyil, Ermənistan işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxması ilə həll oluna bilər.

Rusiyalı ekspert Aleksandr Duqin də Ermənistanın öncə beş rayonu boşaltmasının zəruri olduğunu vurğulayıb. Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar. Digər ekspertlərin də fikirlərini xatırlatmaq olar. Lakin onların hamısının bir ortaq fikri var: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çəkməlidir. Burada reallıq aydın görünür. Rəsmi İrəvan nə qədər söz hoqqabazlığı etsə də, ondan indi hər kəs zəbt etdiyi ərazilərdən silahlı quldur dəstələrini çıxarmağı tələb edir. Bunun hansı formatda ediləcəyi məsələsi artıq danışıqların predmetidir. Hər bir halda aydındır ki, əsas şərt Ermənistanın təcavüzkar olaraq Azərbaycanın işğal etdiyi ərazilərindən çıxmasından ibarətdir.

Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən dəm vur və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

Belə çıxır ki, münaqişənin hələ də həll edilməməsinin başlıca səbəbi Ermənistanın yuxarıda vurğulanan sadə bir həqiqəti dərk edə bilməməsi ilə birbaşa bağlıdır. Bu aspektdə erməni siyasi şüurunun nadanlığı davam etdiyi müddətdə problemin həllindən real olaraq bəhs etmək çox çətindir. Qalır bir yol: Ermənistanın havadarları güc tətbiq edərək işğalçı erməni silahlılarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar. Bunun isə ehtimalı azdır. Onda Azərbaycan Ordusu "donuzu darıdan çıxarmalı" olacaq!

***Newtimes.az***

# Vəzifələri kosmik yüksəkliyə qaldırarkən

***Moskvada nəşr olunan "İnjenernaya qazeta"nın aprel nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının vitse-prezidenti, akademik Arif Paşayevin "Vəzifələri kosmik yüksəkliyə qaldırarkən" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.***



ИНДУСТРИЯ 2019 АПРЕЛЬ № 4 (1683)

инженерная газета

газета выходит с 1990 г.

**Готовность к решению любых задач**

Президент Международной и Российской инженерных академий, член-корреспондент РАН **Борис Гусев**

Мир вступил в полосу нестабильности. Едва ли не каждый день мы узнаем об очередных природных катаклизмах, столкновениях в экономике, переворотах в политике. Все это порождает новые вызовы, к которым должны быть заранее готовы, в том числе, наука и инженерная практика. Именно готовность отвечать на большие и малые вызовы времени – стратегическая задача наших инженерных академий и их подразделений.

В структуре Международной инженерной академии (МИА) представлены 15 академий, отделений и представительств из различных стран. При общем стремлении к развитию науки и техники у каждой из стран есть свои приоритеты и особенности. Но, вместе с тем, при работе по 30-ти инженерным направлениям существуют и главные. Это - энергетика, материаловедение, машиностроение (в том числе роботизация), информационные технологии, экология и ряд других.

За прошедший период членами инженерных академий разработано множество новых видов техники, технологий, материалов, учебных программ.

Так при участии членов МИА **Азербайджан-**

**ОТВЕЧАЯ НА ВЫЗОВЫ ВРЕМЕНИ**

Международная и Российская инженерные академии

Общее собрание

**Поднимая задачи до космических высот**

Президент Азербайджанской инженерной академии академик **Ариф Пашаев**

Азербайджан взял курс на диверсификацию экономики, на укрепление ненефтяного сегмента, а также индустриализацию и возрождение аграрного сектора.

Вместе с тем, в Азербайджанской Республике осуществляется Государственная программа по созданию и развитию космической промышленности. Выведен на орбиту телекоммуникационный

*(Окончание на 4-й стр.)*

Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi yolunu seçib və qeyri-neft seqmentinin möhkəmləndirilməsi ölkəmiz üçün prioritet olub. Azərbaycan Mühəndislik Akademiyası bunu nəzərə alaraq bütün qüvvələrini qeyri-neft sənayesinin inkişafına, aqrar sektorun sənayeləşməsinə və dirçəldilməsinə yönəldib. Akademiya ölkənin davamlı inkişafı strategiyasının işlənib hazırlanmasına və təkmilləşdirilməsinə xüsusi diqqət yetirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı həyata keçirilir. Telekommunikasiya peyki orbitə çıxarılıb, hazırda bu peykin köməyi ilə 154-dən çox telekanalın və 30 radiostansiyanın verilişləri yayımlanır.

2018-ci ilin sentyabr ayında Azərbaycan Fransanın "Arianespace" şirkəti ilə birlikdə növbəti "Azerspace-2" peykini orbitə çıxarıb. Bu peyk artıq orbitdə olan "Azerspace-1" peykinin əhatə dairəsini genişləndirməklə bərabər, onun üçün ehtiyat rolu yerinə yetirir, bu da əhaliyə daha etibarlı xidmətlər göstərməyə imkan verir. Bu peykin xidmət zonasına Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxildir. Mühəndislik Akademiyası bu proqramın həyata keçirilməsində fəal iştirak edir və kosmos üzrə şuraya rəhbərlik edir.

Neftlə çirklənmə parametrlərinin qiymətləndirilməsi üçün yüksək ayırdetmə qabiliyyətli "RADARSAT-2" kosmik radiolokasiya sistemindən istifadə edilməsi əsasında Xəzər dənizinin Azərbaycan sektoru akvatoriyasında neft sızmaları parametrlərinin aşkar edilməsi üzrə işlər davam etdirilir.

Akademiyanın Rəyasət Heyətinin qərarı ilə Milli Aviasiya Akademiyası bazasında müasir avadanlıq, cihazlar və alətlərlə təchiz olunmuş texnopark yaradılıb, bu texnopark tələbələrin və magistrlərin sərəncamına verilib.

2018-ci ildə energetika sahəsində tarixi hadisələr baş verib. Belə hadisələrdən biri "Azəri-Çıraq-Günəşli" yatağına dair kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR digər tərəfdaşları ilə birlikdə bu layihədə operator qismində iştirak edir. Layihədə Azərbaycan Mühəndislik Akademiyasının üzvləri də fəal iştirak edirlər. Bu layihə neft hasilatını hələ uzun illər ərzində sabit səviyyədə saxlamağa imkan verəcək. Cənub Qaz Dəhlizinin, habelə TANAP və TAP qlobal layihələrinin həyata keçirilməsi uğurla davam edir.

Marşrutların şaxələndirilməsi və Böyük İpək Yolu üzərində yerləşən ölkələrlə iqtisadi əlaqələrin genişlənməsi baxımından nəqliyyat müstəqilliyini, o cümlədən Avropa qitəsinin müstəqilliyini təmin edən daha bir genişmiqyaslı transregional layihə Bakı-Tbilisi-Qars dəmir yoludur. Bu layihə bizə ən yaxın qonşu ölkələr arasında münasibətləri dərinləşdirməyə və möhkəmlətməyə kömək edəcək. Bu layihənin sayəsində biz bir sıra problemləri həll edə biləcəyik. Məsələn, Avropaya qatarla getmək mümkün olacaq, iki günə İstanbula çata biləcəyik. Bu layihə həyata keçiriləndən sonra Pekindən Londona 12 günə çatmaq imkanı yaranacaq. Mühəndislik Akademiyası üzvlərinin də iştirak edəcəyi bu tarixi layihənin reallaşdırılması Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirəcək. Bizim akademiyanın üzvləri Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması sahəsində də mühüm addımlar atırlar. Bu layihə İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edəcək.

Son bir neçə ildə Azərbaycan hökuməti ölkədə sürət qatarları konsepsiyasını fəal şəkildə reallaşdırır. Sovet dövründən miras qalmış dəmir yolu infrastrukturu artıq dövrümüzün tələblərinə cavab vermir və onun əsaslı şəkildə modernləşdirilməsinə ehtiyac var. Sürətli marşrutun istifadəyə verilməsi nəticəsində artıq Bakı ilə Sumqayıt arasında əsas avtomobil magistralında avtomobillərin axını, yollarda tıxacların sayı azalıb. Nisbətən qısa müddət ərzində elektrik qatarından istifadə edən sərnişinlərin sayı iki milyonu aşıb. Hər gün 6 mindən çox insan bu elektrik qatarından istifadə edir, bu isə o deməkdir ki, insanlar layiqli alternativin üstünlüyünü və rahatlığını düzgün qiymətləndiriblər.

Qəbələ son illərdə Azərbaycanın inkişaf etmiş turizm mərkəzinə çevrilib. Bu istiqamətdə turist axını istər qışda, istərsə də yayda azalmır. 2019-cu ilin sonunda Bakının mərkəzindən Qəbələ aeroportuna qədər dəmir yolu istifadəyə veriləndən sonra bu məsafəni 2,5 saata qət etmək mümkün olacaq. Bu marşrut üzrə hərəkət edəcək, 367 sərnişin tutumu olan ikimərtəbəli "Ştadler" dəmir yolu ekspreslərinin sürəti saatda 120-140 kilometrə çatacaq. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Bakı-Gəncə sürətli dəmir yolu marşrutu yaradır. Bu layihəni 2019-cu ilin sonuna qədər tamamlamaq planlaşdırılır. Bütün bunlar logistika məsələsinin həllini aktuallaşdırıb. Bu istiqamətə turistlərə yanaşı, yerli sakinlər də üstünlük verir. Bütün bu layihələrin reallaşdırılmasında Azərbaycan Mühəndislik Akademiyasının üzvləri çox fəal iştirak edirlər.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin birinci mərhələsi çərçivəsində Hollandiyanın "Royal Haskoning" şirkəti ilə birlikdə bərə terminalı da açılıb. Bizim akademiyanın üzvləri bu layihədə də iştirak ediblər. Limanın yükaşırma həcminin ildə 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olması nəzərdə tutulur. Layihəyə əsasən limanda logistika mərkəzinin yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu mərkəz Azərbaycanın Qərb ilə Şərq arasında yükaşırma məntəqəsinə çevrilməsinə imkan verəcək.

Sənaye innovasiya texnologiyalarının tətbiq edilməsi sahəsində akademiyada ayrı-ayrı birlik və müəssisələrin sifarişi ilə praktika üçün əhəmiyyətli məsələlər yerinə yetirilir. Məsələn, "Aqreqat" İstehsal Birliyinin sifarişi ilə gücü 2000 vatta qədər olan aviasiya qızdırıcıları üçün termostabilizasiya və qəza ayırma qurğusu yaradılıb. Azərbaycan Mühəndislik Akademiyası çərçivəsində "İqlim" Elm-İstehsal Müəssisəsinin sifarişi ilə çoxdamarlı sıxacların avtomatik yoxlanması və elektromontaj sınaqları üçün daha mükəmməl qurğunun yaradılması başa çatdırılıb.

Suyun ilkin tərkibi mürəkkəb və çox çirkli olduğu yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsi üzrə modul qurğusunun yeni avtomatik idarəetmə blokunun yaradılması da davam etdirilir. Bu qurğu modulun işini məsafədən simsiz müşahidə və idarə etməyə imkan verəcək.

Akademiyanın alim və mühəndisləri neft-kimya texnologiyaları sahəsində neft-qaz mədənlərinin tərkibində kükürd-hidrat və karbon qazı olan lay sularında metalın qorunması üçün korroziya ingibitorları yaradıblar. Bu ingibitorların yaradılması zamanı neft-kimya sintezi üçün xammal mənbələri qismində təbii və sintetik üzvi turşulardan istifadə edilib.

Akademiyada ozonlaşdırma texnologiyası və xüsusi təyinatlı müvafiq avadanlıq yaradılıb. Bu avadanlıqdan aviasiyada, təbabətdə, kənd təsərrüfatında və ölkə iqtisadiyyatının digər sahələrində istifadə edilir.

Aqrosənaye sektorunda ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatının inkişafı sahəsində quraqlığa davamlı kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi, düzənlik və dağətəyi quraqlıq zonalarda və Azərbaycan Respublikasının eniş-yoxuşlu torpaqlarında eroziyaya qarşı mübarizə və sudan istifadə proqramlarını xüsusi qeyd etmək lazımdır. Azərbaycan bu istiqamətdə Rusiya Federasiyası ilə birlikdə kənd təsərrüfatının inkişafına dair dövlətlərarası proqram hazırlayır. Bizim akademiya N.İ.Vavilovun genetik resurslara aid elmi irsinin inkişaf etdirilməsi üzrə birgə iş aparır.

Toxumların səpin keyfiyyətini yüksəltmək məqsədilə biz morfoloji göstərici əsasında ozonlu mühitdə kənd təsərrüfatı bitkiləri toxumlarının səpinqabağı stimullaşdırılmasının səmərəli dozasını

# Vəzifələri kosmik yüksəkliyə qaldırarkən

müəyyən etmək metodunu təklif etmişik və toxumun sortundan asılı olaraq avtomatik idarə edilən doza hesablayan qurğunun eksperimental nümunəsini yaratmışıq.

2018-ci ilin iyun ayında Bakıda Dünya Əqli Mülkiyyət Təşkilatı və Avrasiya Patent Təşkilatı tərəfindən "Əqli mülkiyyətin innovasiyalı iqtisadiyyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Bizim akademiyanın həmin konfransa təqdim etdiyi işlər müsbət qiymətləndirilib.

Beynəlxalq əməkdaşlıq sahəsində bizim akademiya bir sıra milli və beynəlxalq akademiyalar və mühəndis cəmiyyətləri ilə əlaqələri və səmərəli əməkdaşlığı nizamlamağa səy göstərir. Azərbaycan Mühəndislik Akademiyası Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə Sloveniya, Belarus, Gürcüstan və Qırğızıstanın mühəndis akademiyaları ilə üçtərəfli müqavilələr imzalayıb.

İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasının (İÖMİF) tərkib hissəsi kimi biz Azərbaycan Mühəndislik Akademiyası ilə İÖMİF və onun üzvləri arasında əməkdaşlığı genişləndiririk.

Bizim akademiyanın üzvləri il ərzində 4 konfrans, çoxsaylı dəyirmi masalar, seminarlar və ustad dərsləri təşkil edib, bir sıra konqreslərdə, beynəlxalq və regional elmi forumlarda, simpozium və konfranslarda iştirak ediblər.

Üzərində iş gedən bütün layihələrə ölkənin aparıcı elmi potensialı, o cümlədən Milli Elmlər Akademiyası, aparıcı ali məktəblər və onların intellektual-innovasiyalı klasteri, Azərbaycan Mühəndislik Akademiyasının da aid olduğu elmi mərkəzlər və təşkilatlar cəlb edilir.

Bizim mühəndislər birliyinin fikrincə, təhsildə əsas resurs məhz istedadlı və hazırlıqlı insanlar olmalıdır.

Milli Aviasiya Akademiyasında hər il aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişaf etdirilməsinə həsr olunmuş "Fevral mütaliələri" keçirilir. Bu mütaliələrin təşkilatçıları Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC (AZAL), Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətidir. "Fevral mütaliələri-2018" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda III Beynəlxalq elmi-praktiki gənclər konfransı keçirilib. Konfransın işində Rusiya, ABŞ, İngiltərə və Qazaxıstandan gəlmiş xarici qonaqlar iştirak ediblər. Gənclər arasında riyaziyyat və fizika, müasir informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı mütəxəssislərin ustad dərsləri, dəyirmi masalar keçirilir.

Ötən il bizim akademiyanın üzvləri onlarca kitab, monoqrafiya, o cümlədən "Aviasiya materialşünaslığı", "Mezomexanika və plastiklik fizikası", "Synergetics and Fractals in Tribology", "Materiallar müqaviməti" adlı kitablar, "Mühəndislik fəlsəfəsi" traktatı və bir sıra başqa əsərlər nəşr ediblər. Ümumilikdə 60-a yaxın elmi məqalə dərc edilib, 5 patent, o cümlədən Avrasiya patenti alınıb. Akademiyanın üzvləri, o cümlədən xarici alimlər mühəndis cəmiyyətinin inkişafına verdikləri böyük töhfəyə görə Mühəndislik Akademiyasının beş qızıl "Mühəndis rəşadəti" medalı ilə təltif ediliblər. Akademiyanın üç üzvü mühəndislik tədqiqatlarının tətbiqinə görə üç nominasiya üzrə akademiyanın "İlin mühəndisi" fəxri adına layiq görülüb, onlara diplom və xatirə medalları təqdim edilib. Akademiya üzvlərinin xidmətləri dövlət, hökumət və ictimai təşkilatlar tərəfindən qeyd edilib: akademiyanın 6 üzvü orden və medallarla təltif edilib, 1 nəfər "Əməkdar mühəndis", 2 nəfər "Əməkdar müəllim" fəxri adlarına layiq görülüb, 3 nəfərə "İlin mühəndisi" fəxri adının diplomları və xatirə medalları təqdim edilib.

Akademiyanın elmi orqanı - "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" adlı beynəlxalq elmi-texniki jurnal 10 il ərzində Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. Jurnal bütün dünya alimlərinin araşdırdığı problemlərin vəziyyətinə böyük əhəmiyyət verir. "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalı internet şəbəkəsində inteqrasiya edilmiş elmi resursun hüquqi sahibidir. Buraya Rusiya Elmi Sitatgətirmə İndeksi (RESİ) daxildir. Bu indeksin əmsalı jurnalın reytinqini müəyyən edir.

2018-ci il bir sıra yeni layihələrin iştirakçısı kimi Azərbaycan Mühəndislik Akademiyası üçün səmərəli il, iqtisadi artımın bərpası, iri infrastruktur layihələrinin reallaşdırılması, genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi ili olub.

***Arif Paşayev***
***Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik***



## Türkiyə-Azərbaycan hərbi təlimləri Ermənistanı qorxuya salıb

Türkiyə-Azərbaycan hərbi təlimlərini xüsusi diqqət mərkəzində saxlamaq gərəkir, təxribatlar mümkündür, çünki ordu artıq yüksək hərbi hazırlıq səviyyəsinə çatdırılıb. SİA Ermənistana məxsus tert.am saytında dərc olunan məlumata istinadən xəbər verir ki, bunu qondarma "Dağlıq Qarabağ"ın qondarma preidentinin mətbuat katibi David Babayan deyib. David Babayan Azərbaycan tərəfinin may ayında sərhəd zonasında təxribatlar sala biləcəyini inkar etmək olmaz, deyə bildirib. "Unutmayaq ki, Türkiyə hər zaman Qarabağ münaqişəsində əhəmiyyətli rol oynayıb. Aprel döyüşlərində də onlara ordu zabitləri, həmçinin terroristlər də qoşulub", - deyərək sayıqlayan Babayan qorxusunu da gizlədə bilməyib. David Babayan xatırladıb ki, aprel döyüşlərindən öncə də Türkiyə-Azərbaycan hərbi təlimləri keçirilirdi. "Türkiyə-Azərbaycan hərbi-siyasi əməkdaşlığı hər zaman yüksək səviyyədə olub. Biz heç zaman həqiqətdən kənarda olmamalıyıq və unutmamalıyıq ki, Azərbaycanla mübarizədə bizim qarşımızda eyni zamanda Türkiyə də dayanır"- deyə o bildirib.

Babayan etiraf edib ki, Türkiyənin Ermənistana qarşı aktiv fəaliyyət göstərməməsi üçün düzgün geosiyasət qurulmalıdır və hətta Rusiya hərbi bazasının Ermənistan ərazisində simvolik olaraq saxlanılması belə Türkiyəni neytrallaşdırır və Ermənistanı təhlükələrdən qoruyur. O eyni zamanda qorxusunu belə gizlədə bilməyərək etiraf edib ki, Ermənistanın tək qalması sadəcə ölkə üçün fəlakətdir.

***İnam Hacıyev***

## Qondarma rejimin ombudsmanı: Dağlıq Qarabağda işsizlik və yoxsulluğun səviyyəsi artır



Qondarma Dağlıq Qarabağ rejiminin ombudsmanı Artak Beqlaryan Ermənistan parlamentindəki çıxışında bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan bu qanunsuz "respublika" dünya ictimaiyyətindən tamamilə təcrid olunub. Onun sözlərinə görə, rəsmi Bakının beynəlxalq hüquq normaları çərçivəsində beynəlxalq məhkəmələrə müraciətindən çəkinən dünyanın nüfuzlu iş adamları və şirkətləri qondarma "respublika"nın iqtisadiyyatına sərmayə yatırmaqdan imtina edirlər və bunun nəticəsində işsizliyin və yoxsulluğun səviyyəsi getdikcə artır.

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağdakı doğma ev-eşiklərindən məhrum olmuş və məcburi köçkün vəziyyətində yaşayan azərbaycanlıların hüquqlarını pozan ermənilərin insan haqları təmsilçisi iddia edib ki, rəsmi Bakının təzyiqi nəticəsində qondarma "respublika"da insan hüquqları pozulur. "Çoxsaylı beynəlxalq strukturlar Qarabağda layihələr həyata keçirməkdən imtina edirlər, onların əsas arqumenti "respublika"nın tanınmaması və Azərbaycanın reaksiyasıdır", -deyə Beqlaryan gileylənib. Qondarma rejimin ombudsmanı əlavə edib ki, Dağlıq Qarabağdakı ermənilərin təhsil aldıqları ali məktəblərin diplomları tanınmır, onlar müxtəlif beynəlxalq layihələrdə iştirak etmək və xaricdə müalicə olunmaq imkanlarından məhrumdurlar. İşğalçı rejimin nümayəndəsinin sözlərinə görə, Dağlıq Qarabağda biznes fəaliyyəti ilə məşğul olan erməni mənşəli əcnəbilər də Azərbaycanın hüquqi platformada həyata keçirdiyi tədbirlər nəticəsində bu ərazini tərk edirlər. Beqlaryan bildirib ki, bütün bu amillərin nəticəsində qondarma "respublika"da sosial-iqtisadi vəziyyət daha da ağırlaşıb.

## Əhali qrupu üzrə təbii qazın illik istehlak həcmi 500 kubmetr artırılıb




Əhali qrupu üzrə təbii qazın illik istehlak həcmi 500 kubmetr artırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının yaydığı məlumatda deyilir. Bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin sistemli və davamlı xarakter daşıyan sosial siyasətinə uyğun olaraq, növbəti humanist addım atılıb. Belə ki, dövlət başçısının tapşırığına əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi və güzəştin şamil edildiyi əhali istehlakçılarının əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə Tarif (qiymət) Şurasının aprelin 30-da keçirilmiş iclasında əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb. İstehlak həcminin dəyişməsi ilə əlaqədar olaraq yaranmış fərq dövlətin maliyyə vəsaiti hesabına qarşılanacaq.

Qeyd edək ki, 1,5 milyondan çox abonent (6 milyondan çox vətəndaş) təbii qazı yalnız aşağı tariflərlə istifadə edir.

Yeni qərara əsasən, əlavə olaraq daha 300 minədək əhali abonenti (1,2 milyondan çox vətəndaş) təbii qazı yalnız aşağı tariflərlə istifadə edəcək. Beləliklə, təbii qazı yalnız aşağı tariflə istehlak edən əhali abonentlərinin xüsusi çəkisi 70 faizdən 85 faizədək artacaq. Qərar bu il mayın 1-dən qüvvəyə minir. Qərarla saytın "Şuranın qərarları" bölməsində tanış olmaq olar. Atılmış bu humanist addım dövlət başçısının ölkə vətəndaşlarına böyük diqqət və qayğısının daha bir nümunəsidir.

## DSX: Sərhəd döyüş məntəqələri Ermənistan ordusu tərəfindən atəşə tutulub

Aprelin 29-30-da Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd döyüş məntəqələri günün müxtəlif vaxtlarında Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulub.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya bildiriblər ki, bölmələrimizin atəşə tutulduğu Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri istiqamətində cavab atəşi açılıb.



# "Formula-1" SOCAR Azərbaycan Qran-Prisi möhtəşəmliyi ilə yadda qaldı

***Mötəbər beynəlxalq idman tədbirlərinin təşkilatçılığı baxımından artıq böyük təcrübə qazanmış Azərbaycan 26-28 aprel tarixlərində daha bir idman yarışına uğurla ev sahibliyi etdi. Dünyada 500 milyondan çox azarkeşi olan "Formula-1" Qran-Prisini dörd il əvvəl ilk dəfə təşkil edən Bakı artıq bu yarışların təşkilində də əhəmiyyətli təcrübəyə malikdir. Məhz, 26-28 aprel tarixlərində dünyanın dörd bir yanında yaşayan tamaşaçıların diqqəti ölkəmizdə keçirilən "Formula-1" Qran-Prisinə yönəldi.***

Qeyd edək ki, "Formula-1" Qran-Prisi olduqca populyar olan idman növüdür. Yarışın paytaxtımızda təşkil olunması Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Bu Qran-Prinin Azərbaycanda təşkil olunması, ilk növbədə, ölkəmizin gündən-günə artan beynəlxalq nüfuzunun göstəricisidir və dövlətimizə olan böyük etimadla bağlıdır. Adıçəkilən yarışın Bakıda keçirilməsi, ilk növbədə, ölkəmizi dünyaya tanıtmaq üçün əlverişli fürsətdir. Həmçinin adıçəkilən yarışlar Azərbaycanın iqtisadiyyatına xeyir verəcək bir amildir. Çünki "Formula-1" Qran-Prisinə baxmaq üçün ölkəmizə xaricdən çoxlu sayda qonaq gəlir. Yarışlar ölkəmizin mədəniyyətini dünyaya təqdim etmək baxımından da əhəmiyyətlidir. Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının mühüm sahəsi olan turizmin inkişafına da mühüm töhfə verir.

"Formula-1" Qran-Prisi bir tərəfdən əyləncəli tədbirdir, digər tərəfdən isə keçirildiyi ölkənin dünyada təbliğində böyük rol oynayır. Yarışlar ərəfəsində internet resurslarında "Formula-1" Qran-Prisi keçirilən ölkə ilə bağlı axtarışların sayı milyonları keçir. Həmçinin bu yarışların respublikamızda keçirilməsi dünyanın həm Azərbaycanın tarixi, həm də mədəniyyəti ilə tanış olmasına, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri daha dərindən başa düşməsinə imkan yaradır. Bundan əlavə, ölkəmizin sivil, inkişaf edən bir ölkə olması qənaətinə gəlməsindən xəbər verir. Təşkilatçılar da Azərbaycanın yarışların təşkilinə diqqətindən çox razılıq edirlər. Son üç ilin təcrübəsi nəzərə alınaraq, bu il yarışa hazırlıq işləri daha qısa zamanda və yüksək səviyyədə ortaya qoyuldu. Heç şübhəsiz ki, 26-28 aprel tarixlərində Bakıda keçirilən bu yarışlar bütün dünya tərəfindən böyük maraqla izlənildi.

"Formula-1" yarışı məşhurluğuna görə futbol üzrə dünya çempionatları və olimpiya oyunları ilə rəqabət aparır. Çempionat birbaşa efirdə yayımlanır və beş qitənin 200 ölkəsini əhatə edir. Açıqlanan statistik rəqəmlərdə qeyd olunur ki, adıçəkilən yarışı izləmək üçün 2016-cı ildə Bakıya dünyanın 42, 2017-ci ildə 65, 2018-ci ildə isə 78 ölkəsindən qonaqlar gəlib. Bu il keçirilən yarışları izləmək üçün ölkəmizə gələn qonaqların sayı isə daha çox oldu.

Araşdırmanın nəticələrinə dair hazırlanmış hesabatda qeyd olunur ki, 2016-cı və 2017-ci il Qran-Prilərindən ölkəmizə gələn ümumi gəlirlərin məbləği 277 milyon dollar təşkil edib. Belə ki, yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib. Nəzərə almaq lazımdır ki, əsas xərcləri - müvafiq avadanlıqlar alınması, bu və ya digər infrastruktur qurğuların quraşdırılması yarışın ilk ilində həyata keçirilir, sonrakı illər isə xərclər get-gedə azalır.

"Formula-1" Qran-Prisinin ölkəmizdə keçirilməsi, həmçinin turizm sektorunun inkişaf etməsinə səbəb olur. Məlumdur ki, adıçəkilən yarış 2023-cu ilə qədər ölkəmizdə keçiriləcək. Ona görə də "Formula-1" Azərbaycan Qran-Prisinin keçirilməsi sayəsində 2023-cü ilədək ölkəmizə turist axınının 4 milyon nəfərə qədər artacağı gözlənir.

Ötən illər ərzində keçirilən "Formula-1" yarışlarında Bakıya gələn turistlərin sayı sürətlə artıb. Yarışlardan sonra Bakı otellərindən verilən bilgilərə görə, bütün otellərin otaqları, demək olar ki, tam sifariş olunmuşdu. Orta hesabla bir turistin 3 gün ərzində bütün xərci 1000 dollar ətrafında qiymətləndirilir. Bu isə əlavə olaraq ölkəmizə 10 milyon dollar gəlirin gəlməsi deməkdir.

Bakıda keçirilən "Formula-1" SOCAR Azərbaycan Qran-Prisi yarışı haqqında dünyanın tanınmış media orqanlarında silsilə materiallar yayımlandı. Hətta 2018-ci ildə Bakıda baş tutmuş "Formula-1" yarışı İngiltərənin məşhur "The Times" və "The Guardian" nəşrləri kimi dünyanın aparıcı kütləvi informasiya vasitələri tərəfindən "2018-ci ilin ən yaxşı yarışı" adlandırılıb.

***"Səs" Analitik Qrupu***

# "Gənclərimizin dini ekstremizm bəlalarından qorunması vacibdir"



***"Azərbaycan dünyəvi dövlətdir. Konstitusiyamıza əsasən təhsil sistemi dünyəvi xarakter daşıyır. Bu bir mənalıdır və dəyişməzdir. Lakin bu, dünyəvi təhsil çərçivəsində ali və orta məktəblərdə dini biliklərin tədris olunmasına mane deyildir".***

Bu fikirləri SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib. Onun sözlərinə görə, bir çox ölkələrin, o cümlədən əksər Avropa ölkələrinin məktəblərinin dərs proqramlarında dini biliklərin müxtəlif formalarda tədrisi həyata keçirilir: "Ümumiyyətlə dinin və ya dini biliklərin tədrisi ilə bağlı bu gün dunyada əsasən üç model mövcuddur: 1.Dinin təlimi. 2.Din haqqında maarifləndirmə. 3.Dindən öyrənmə.

Birinci model adından da göründüyü kimi dinin birbaşa tədrisi ilə bağlıdır. Bu modeldə dini tədris edənin həmin dinin daşıyıcısı olması və qarşı tərəfin də öyrədilən dinə bağlılığının gücləndirilməsi məqsədi güdülür. Birinci model konfessional siyasət yürüdən ölkələrdə tədris olunur. İkinci və üçüncü modellərə gəldikdə bu modellər bir-birini tamamlayır. Bu modellərə görə dini tədrisdən məqsəd şagird və ya tələbələrin din və ya dinlərin mahiyyəti barədə düzgün məlumat əldə etmələri, eyni zamanda tədqiqi baxış qabiliyyəti qazanmalarıdır. Yəni, ikinci və üçüncü modellərin hədəfi qarşı tərəfin (şagird və ya tələbələrin) tədqiqi baxış sayəsində din mövzusunda müstəqil qiymətləndirmə və seçmə bacarığı əldə etmələridir.

Məsələyə bu gün dünyada mövcud olan dini zəmindəki qarşıdurmalar, dinin siyasətə alət edilməsi, Yaxın Şərqdə baş verən proseslər, dini radikalların çağırışları və s. kimi prizmalardan baxdıqda, orta məktəblərdə dini biliklərin dünyəvi təhsil çərçivəsində tədris olunmasının faydalı olcağını görərik. Hətta mən deyərdim ki, bu, dünyəvi dövlət modelinin və milli maraqlarımızın qorunması baxımından əhəmiyyət kəsb edən məsələdir. Xüsusilə də, gənclərimizin dini radikalizm, dini fanatizim, dini ekstremizm kimi bəlalardan qorunması vacibdir. Azərbaycanda orta məktəblərdə "Həyat bilgisi" fənnində dini bilikərə yer verilib. Bu fənnin kitablarında həmin biliklər dinin təlimi yox, din haqqında maarifləndirmə modelinə uyğun hazırlanıb. Lakin bu biliklər yetərsizdir və onların genişləndirilməsinə ehtiyac var".

***Ceyhun Rasimoğlu***

# "Beynəlxalq tədbirlər Azərbaycanın özünütəsdiqidir"



***"Bakıda keçirilən və əsasən uğurla gedən beynəlxalq qran-pri yarışları Azərbaycanın dövlətlərarası böyük tədbirlər keçirməkdə yetərli təcrübə sahibi olduğunu növbəti dəfə sübut etdi.***

Belə beynəlxalq tədbirlərə dövlət strukturları ilə yanaşı cəmiyyətimizin də hərtərəfli hazır olması diqqətləri cəlb edən əhəmiyyətli cəhətdir ". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. O bildirib ki, son illərdə Azərbaycanın ən müxtəlif təmayüllü beynəlxalq tədbirlər keçirməklə bir tərəfdən dünya birliyinə sıx inteqrasiya üçün hər cür göstəricilərə malik olduğunu nümayiş etdirir, digər tərəfdən isə sözügedən təmayüllərin hər biri üzrə yüksək inkişaf nailiyyətləri əldə etdiyini göstərir.

Ekspertin fikrincə, əgər həqiqətən də bu gün Azərbaycan Formula 1 kimi spesifik, Avropa idman oyunları kimi universal yarışları uğurla keçirə bilirsə, bu o deməkdir ki, ölkədə idmanın inkişafı əhəmiyyətli bir mərhələyə gəlib çatıb: "Çoxlu sayda beynəlxalq tədbirlərə ev sahibliyi ölkənin inamlı və cəsarətli olduğunu ifadə edir. Bu isə iqtisadi gücə, sabitliyə, möhkəm təhlükəsizliyə və vətəndaş həmrəyliyinə söykənir. Hər bir beynəlxalq tədbir ölkəmiz üçün yeni tanınma şansları açır. Azərbaycan dünyada nə qədər çox sayda insana və dövlətə məqbul nöqteyi-nəzərdən tanına bilsə beynəlxalq nüfuzu və mövqeyi bir o qədər möhkəm olar".

A.Quliyev söyləyib ki, Azərbaycanın dünyada geniş idman, humanitar və hərbi-təhlükəsizlik platformaları üçün etibarlı məkana çevrildiyinə dair saysız faktlar göstərmək olar: "Uğurlu beynəlxalq tədbirlər Azərbaycan dövlətinin çox mühüm özünütəsdiq üsullarından birinə çevrilməkdədir. Dövlətimiz mühüm tranzit məntəqə, beynəlxalq nəqliyyat dəhlizlərinin müəllifi, enerji layihələrinin sahibi, qeyri-neft modeli uğurlu yaradan ölkələrdən biri, NATO və Rusiyanın dialoq, multikulturalizm məkanı kimi tanınır. Mühüm beynəlxalq tədbirləri də əlavə etsək mənzərə tamamlanır və beynəlxalq idman, humanitar, təhlükəsizlik tədbirləri Azərbaycanı tanıdan möhkəm brendlərdən birinə çevrilir. Bu, hamının qürur duya biləcəyi məqamdır".

***Nailə Məhərrəmova***

# "Dövlət dini təhsil verə bilməz, tədrisi həyata keçirə bilər"



"Din və təhsil məsələsində beynəlxalq təcrübədə əsasən 3 termindən (anlayışdan) istifadə edilir: birincisi dini tərbiyə, ikincisi dini təhsil, üçüncüsü dinlə bağlı tədris. Dini tərbiyəni yalnız ailə verə bilər, dövlət dini tərbiyə verə bilməz. Dini təhsili dini təhsil ocaqları verir, dövlət dini təhsil verə bilməz. Amma dövlət dinlə bağlı tədrisi həyata keçirə bilər". Bunu SİA-ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib.

Sədr müavinin sözlərinə görə, dinlə bağlı tədris isə dinin yox, şəriətin yox, dini biliklərin verilməsini nəzərdə tutur və bu, nə dünyəviliyə, nə də Konstitusiyaya ziddir: "Orta məktəblərdə riyaziyyat, fizika, ədəbiyyat və s. tədris edilir. Məqsəd hamını riyaziyyatçı, fizik, ədəbiyyatçı etməkdirmi? Yox! Riyaziyyatçı, fizik, ədəbiyyatçını Ali məktəb yetişdirir. Orta məktəb riyaziyyat, fizika, ədəbiyyatla bağlı zəruri biliklər verir. Dinlə bağlı tədrisin də məqsədi hamını dindar və ya din adamı etmək deyil. Sadəcə, dinlə bağlı minimum biliklər verməkdir. Bu bilikləri dövlət verməsə başqaları verəcək amma dövlətin maraqlarına zidd şəkildə. Artıq proses başlanılıb. Orta məktəblərdə "Həyat" bilgisi fənni tədris edilir. Onun bir məqsədi də dini bilikləri verməkdir. Burada pis nə var ki, Yaxud burada başa düşülməyəcək nə var ki?!".

## Daşnaklar Paşinyanın istefasını istəyir



Millətçi "Daşnaksütyun" partiyası bu ilin may-iyun aylarında Nikol Paşinyanın hakimiyyətdən gedəcəyini proqnozlaşdırır. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, onlar bunu "Qazprom Ermənistan", "Ermənistan Elektrik Şəbəkəsi" və "Araratsement" zavodlarında kütləvi ixtisarlara görə ictimai narazılığın artmasına bağlayır.

"Qrapark" qəzetinin məlimatına görə, daşnaklar bu məsələni "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" partiyalarının nümayəndələri ilə də müzakirə ediblər.

***Beynəlxalq aləmdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə, multikulturalizmə və s. verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq qurumların üzvü oldu. Böyük nüfuza sahib olan Azərbaycana dünyanın istənilən qitəsindən nəzər saldıqda Odlar Diyarındakı həyat böyük marağa səbəb olur. Xüsusi ilə də dünyanın qarışıq bir dövründə bir məkanda yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması bu marağın yaranmasına dəlalət edir. Tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən, irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə firavan həyat sürməsinə imkan yaradıb.***

Bu məkanda bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Bu ölkədə hər kəs mənsubiyyətindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbəst fəaliyyət göstərir. Əgər Azərbaycan ərazisində 2000-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, demək bu artıq tolerant mühitin mövcudluğunu tam əsaslandırır.







# Azərbaycan tolerantlıq diyarıdır

## DÖVLƏTİN DİN SAHƏSİNDƏKİ SİYASƏTİ BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİNƏ VƏ NORMALARINA ƏSASLANIR

Bu gün Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Ölkəmizdəki multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlətdin konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycanın azadlığı və firavanlığı uğrunda mübarizə aparıblar. Azərbaycan Respublikasının din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulub. Dövlətin din sahəsindəki siyasəti beynəlxalq hüququn prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. Bu ölkədə hər kəs mənsubiyyətindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbəst fəaliyyət göstərir. Azərbaycan ərazisində məscidlərin, pravoslav, katolik, gürcü-pravoslav kilsəsi, sinaqoq və digər ibadət yerləri fəaliyyəti multikultural mühitin mövcudluğuna tam əsaslanır. Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib. Həm buna tarixi-mənəvi haqqı olması, həm beynəlxalq nüfuzu, həm də gələcəyə yönəlik planları nöqteyi-nəzərindən Azərbaycanın qarşısına belə bir məqsəd qoyması təbii və zəruri prosesdir.

## AZƏRBAYCAN XALQI MULTİKULTURAL TƏBİƏTİNƏ SADİQDİR

Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmasına əlverişli zəmin yaradıb. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Həmin ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar. Həmin kəndlərdə geniş küçələr, aynabəndli, taxtapuşlu, zirzəmili və eyvanlı evlər tikilirdi. Tarixi mənbələrdə göstərilir ki, sonralar Gəncə və Qazax qəzalarında almanların yeni koloniyaları- Georqsfeld (indi Şəmkirin Çinarlı qəsəbəsidir), Alekseyevka, Qrünfeld (indi Ağstafanın Həsənsu kəndidi), Ayxenfeld (indi Şəmkirin İrmaşlı kəndidi), Traubenfeld (indi Tovuz şəhəri), Yelizavetinka ( indi Agstafa şəhəri) və Marksovka yarandı.

XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycanda yaşayan almanların əksəriyyəti protestantlığa etiqad edirdilər. Ölkəmizdə protestant kilsəsi 1857-ci ildə, məhz Helenendorfda (Xanlar ərazisində) tikilib. Sonralar Gədəbəy, Şamaxı, Bakı, Şəmkir ərazisində də alman lüteran kilsələri tikilib istifadəyə verildi. Almanların Azərbaycana yerləşdirilməsindən sonra əlli il ərzində Gəncə ətrafında iki, Şəmkirdə üç, Tovuzda bir, Ağstafada üç alman yaşayış məntəqəsi salınıb və alman ailələrinin sayı 3400-ü ötüb. Hazırda Şəmkir, Ağstafa, Xaçmaz, Göygöl və digər bölgələrdə çoxlu sayda alman abidələri Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeydiyyata alınıb və dövlət tərəfindən qorunur.

Almanlar məskunlaşdıqları və qaynayıb-qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək, lazımınca qoruyub-saxlayıb. Azərbaycan xalqının tarixi və mədəniyyətində dərin iz qoymuş bu hadisənin UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi təqdirəlayiqdir.

Bildiyimiz kimi, Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı olduğunu bir daha təsdiqləmiş oldu. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər.

## AZƏRBAYCAN DİNLƏRARASI VƏ ÇOXMƏDƏNİYYƏTLİ HARMONİYANIN İNKİŞAFINA TƏKAN VERİR

Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlıq göstərib və bu gün də bu ənənə qorunub-saxlanılır. Dünyada terror, ksenofobiya, irqçiliklə bağlı münaqişələr baş verdiyi halda, birgə yanaşı yaşamaq haqqında təsəvvürlər, məhz bizim ölkədə genişlənir. Bir daha aydın olur ki, Azərbaycan əsrlərdir fərqli din və mədəniyyətlərin qovuşuğunda yerləşir, ölkədə tarix boyu tolerantlıq və multikulturalizm mövcud olub, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri burada sülh şəraitində birgə yaşayıblar. Terrorizmin baş alıb getdiyi dünyada, İslama qarşı hücumların artdığı və islamafobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ümumbəşəri və humanist ideyalarını təbliğ edir. Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrindən bəhrələnməli, dünyanı buxovlayan qərəzli çıxışlara qarşı birgə iradə nümayiş etdirməlidirlər. Ekstremizm və dözümsüzlük əleyhinə çıxış edən Azərbaycan kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ölkəmizdə qida təhlükəsizliyi və keyfiyyətin artırılması istiqamətində müvafiq tədbirlər görülür

***Ölkə əhalisinin keyfiyyətli və təhlükəsiz ərzaq mallarına tələbatının daha dolğun və davamlı təmin edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər müsbət nəticələrini verməkdədir. Ölkədə qida və kənd təsərrüfatı məhsullarının istehsal və idxal-ixrac həcminin artması, istehlakçıların sağlamlığının qorunması kimi şərtlər qida təhlükəsizliyi sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini zəruri edir.***



Qida təhlükəsizliyi cəmiyyətin inkişafında, gələcək nəsillərin sağlamlığında, insan genofondunun qorunmasında, iqtisadi məhsuldarlığın təmin olunmasında xüsusi əhəmiyyət kəsb edən mühüm bir sahədir. Son illərdə bütün dünyada qida təhlükəsizliyi ilə bağlı yeni çağırışlar meydana gəlməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən institusional islahatların tərkib hissəsi kimi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addım atılıb. Agentliyin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılıb.

Qeyd edək ki, indiyədək ölkədə ərzaq təminatı ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmiş, həmçinin bu islahatların davamı olaraq məqsədli proqramlar, konsepsiyalar və digər sənədlər qəbul olunmuşdur.

Qida təhlükəsizliyi sahəsində aparılan islahatların davamı olaraq, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Dövlət Proqramının icrası üçün 12 əsas istiqamət üzrə qarşılıqlı əlaqəli tədbirlər müəyyənləşdirilib. Bunlardan bir qida təhlükəsizliyi sahəsində qlobal meyillərdir. Bildiyimiz kimi, bu gün dünyanın hər bir qitəsində qida mənşəli xəstəliklərə yoluxma və qida zəhərlənməsi hallarının artması qeydə alınır. Ümumdünya Səhiyyə Təşkilatının 2017-ci il üçün hesabatına əsasən, dünyada hər il 600 milyon insan, yəni dünya əhalisinin hər on nəfərindən biri qida məhsullarından zəhərlənir. Qida mənşəli xəstəliklər və zəhərlənmə halları həm əhalinin sağlamlığına və rifahına mənfi təsir göstərir. həm də fərdlər, ailələr, icmalar, təsərrüfat subyektləri və ölkələr üçün ağır iqtisadi nəticələrə gətirib çıxarır.

Dövlət Proqramının əsas məqsədləri qida təhlükəsizliyi sahəsində norma və standartların beynəlxalq tələblərə uyğunlaşdırılması, əhalinin təhlükəsiz və keyfiyyətli qida ilə təminatının yaxşılaşdırılması, bununla da qida mənşəli xəstəliklərin nəzərəçarpacaq dərəcədə azaldılmasıdır. Qida təhlükəsizliyinin və keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görməklə, onların rəqabətqabiliyyətliliyinin və xarici bazarlara ixrac potensialının artırılması da əsas məqsədlər sırasındadır. Qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, ölkədə heyvan və bitki sağlamlığının təmin edilməsi nəzərdə tutulur.

Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı planlaşdırılan bütün icra tədbirləri prioritet istiqamətlər üzrə qruplaşdırılıb. Belə ki, qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində infrastruktur təminatının yaxşılaşdırılması, qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi, bu sahəsində elmi sübutlara əsaslanan və beynəlxalq tələblərə cavab verən risklərin təhlili sisteminin formalaşdırılması və s. nəzərdə tutulub.

Bütün bunlar ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi daşıyır.

***Zümrüd BAYRAMOVA***

# "Bir kəmər-bir yol" Azərbaycanın strateji hədəfləri ilə üst-üstə düşür"

***"Özünün milli maraqlar üzərində qurulan xarici siyasətində daim xoş məram nümayiş etdirən Azərbaycan bir qayda olaraq regional və qlobal əhəmiyyət daşıyan layihələrə dəstək verir və onların həyata keçirilməsində yaxından iştirak edir.***



İndiyədək regionda respublikamızın təşəbbüsləri və moderatorluğu ilə bir sıra önəmli infrastruktur layihələrinin reallaşdırılması buna misaldır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sahibə Qafarova deyib. Onun sözlərinə görə, Azərbaycandan başlayan şaxələndirilmiş enerji və nəqliyyat dəhlizləri çox haqlı olaraq ölkəmizin regional və qlobal əməkdaşlığın dərinləşməsinə əvəzolunmaz töhfələri kimi dəyərləndirilir. Hazırda isə Azərbaycan Çin tərəfindən irəli sürülən "Bir kəmər-bir yol" layhəsinə öz dəstəyini nümayiş etdirir.

S.Qafarova xatırladıb ki, bu günlərdə Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu keçirilib. Bir sıra beynəlxalq təşkilatların rəhbərlərinin, həmçinin 37 dövlət və hökumət başçısının qatıldığı forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyev forum çərçivəsində dövlət başçıları səviyyəsində "Daha parlaq birgə gələcəyin qurulması" mövzusuna keçirilən görüşdə çıxış edərək respublikamızın "Bir kəmər bir yol" təşəbbüsünə lap əvvəldən dəstək verdiyini bir daha nəzərə çatdırıb. Fikirlərinə davam edən millət vəkili ölkəmizin də dəstək verdiyi yeni təşəbbüsün qlobal əhəmiyyətinə diqqət çəkib. S.Qafarova deyib: "Pekində keçirilən forumda da vurğulandığı kimi, bəhs olunan təşəbbüs dünyanın inkişafında yeni mərhələdir. "Bir kəmər, bir yol" layihəsi ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı əhatə edir. İqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüs qədim İpək Yolu üzərində yeni dəyərlərin formalaşmasına, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərinin azalmasına, eyni zamanda beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi töhfələr verir. Layihə həmçinin sosial məsələlərin həlli, ölkələr arasında mədəni-humanitar əlaqələrin genişlənməsi baxımından da böyük əhəmiyyətə malikdir".

S.Qafarovanın sözlərinə görə, "Bir kəmər-bir yol" layihəsinin gerçəkləşməsi Azərbaycanın strateji hədəfləri ilə üst-üstə düşür. Millət vəkili bildirib ki, Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən bəhrələnməklə tranzit imkanlarını getdikcə genişləndirir. "Azərbaycanın dövlət başçısı İlham Əliyevin forum çərçivəsində keçirilən yüksək səviyyəli görüşdə vurğuladığı kimi, müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Respublikamızda müasir nəqliyyat infrastrukturu qurulmasına dövlət tərəfindən güclü siyasi və maddi dəstək göstərilməsi isə heç də təsadüfi deyil. Məlumdur ki, respublikamız həm ölkədaxili ictimai-siyasi sabitlik baxımından, həm də quru və su sərhədlərinə malik olmasına, eləcə də, güclü infrastruktura və iqtisadi resurslarına görə beynəlxalq tranzit daşımaları üçün kifayət qədər cəlbedici məkandır. Çox doğru olaraq istər Şərqdən Qərbə, istərsə də Şimaldan Cənuba gedən yolların ölkəmizdə kəsişməsi qlobal məkanda tranzit daşımaları üçün mühüm yenilik kimi dəyərləndirilir. Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin yaradılmasında 10-dan çox ölkə qoşulub. Ancaq bu ölkələrdən heç biri eyni zamanda hər iki dəhlizin yaradılmasında iştirak etmir. Azərbaycan isə yeganə ölkədir ki, həm Şərqdən Qərbə, həm də Şimaldan Cənuba doğru uzanan dəhlizlərin yaradılmasına və onların funksionallığının artırılmasına özünün sanballı töhfələrini verir", - deyə S.Qafarova əlavə edib.

***Ceyhun Rasimoğlu***

## "Prezident tərəfindən çox mühüm addımlar atılıb"



"Bu il Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən çox mühüm addımlar atılıb. Dövlət başçısı ölkənin xaricdə beynəlxalq səviyyədə nüfuzunun daha da artırılması üçün böyük işlər görüb. Qeyd edə bilərik ki, həm ikitərəfli, həm də çoxtərəfli çox böyük layihələr həyata keçirilib. Buna misal olaraq Cənub-Şimal layihəsini, TAP, TANAP layihələrini və s. göstərə bilərik". Bunu SİA-ya açıqlamasında millət vəkili Aytən Mustafayeva deyib.

Onun sözlərinə görə, bunlar hamısı Azərbaycanın iqtisadi cəhətdən nəinki inkişafı, eləcə də onun təşəbbüskarı və vəsait qoyan investor ölkə kimi də dünyada tanıdır: "Ümumiyyətlə, Davosda keçirilən görüşlər və orada iqtisadi baxımından ayrı-ayrı sahələrə aid verilən reytinqlər də Azərbaycanın xeyli irəlilədiyini göstərdi. Təbii ki, bu da cənab Prezidentin yürütdüyü siyasətin, ölkədə icraçılar qarşısında qoyduğu vəzifələrin icrası ilə bağlı əldə olunan nailiyyətlərin göstəricisidir.

Həmçinin beynəlxalq siyasətdə Azərbaycanın çox uğurlu rol oynaması onu təsdiq edir ki, ölkəmizin düşünülmüş, balanslaşdırılmış siyasəti yüksələn xəttlə inkişaf edir. Azərbaycanın müharibə şəraitində olmasına baxmayaraq ölkəmiz geostrateji baxımından həm barışdırıcı, həm də birləşdirici rolu müvəffəqiyyətlə oynamaqdadır. Eləcə də ikitərəfli görüşlər də göstərir ki, Azərbaycanın Rusiya, İran, Avropa ölkələri ilə əlaqələri inkişaf etməkdədir. Bu siyasəti cənab Prezidentimiz uğurla həyata keçirir. Bu bizim üçün çox müsbət bir göstəricidir".

## Zakir Həsənov "IDEF 2019" sərgisinin açılış mərasimində iştirak edib




Aprelin 30-da İstanbulda "IDEF-2019" sərgisinin açılışı olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Türkiyə Respublikasında səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Beynəlxalq Müdafiə Sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

## Monteneqro nəşri görkəmi Azərbaycan alimi Lütfi Zadədən yazır




Monteneqronun nüfuzlu Avlija.me nəşrində görkəmi Azərbaycan alimi Lütfi Zadənin həyatı və elmi fəaliyyətindən bəhs edən məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Lütfi Zadənin qısa tərcümeyi-halı verilib, onun bir çox alimlərin yeni kəşflərinə yol açan elmi tədqiqatlarının əhəmiyyəti vurğulanıb.

Qeyd olunub ki, Lütfi Zadə qeyri-səlis məntiq nəzəriyyəsinin banisidir. Bu inqilabi nəzəriyyə hazırda foto və video kameraların, paltaryuyan maşınların, tozsoranların istehsalında, nəqliyyat vasitələrinin idarə edilməsində, dünyanın bir çox sənaye nəhənglərinin istehsal proseslərində geniş tətbiq olunur. Məqalədə bildirilir ki, Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsi elmdə yeni istiqamətin əsasını qoyub və böyük əks-səda doğurub. Sistemin əsas komponentlərinin tətbiqində iqtisadiyyat, menecment, informasiya axtarışı, süni intellekt, linqvistika, tibb, biologiya və digər sahələr mühüm rol oynayır. Materialda görkəmli alimin həyatı boyu layiq görüldüyü mükafatlardan da bəhs edilir.

# AXCP sədrinə 100 minlərlə qrantı kimlər ötürür?

## *Və ya Əli Kərimlinin troll başqanı İlham Hüseyn və qrantyeyənlik reallığı*

***Sirr deyil ki, AXCP sədri Əli Kərimlinin trolları əsasən, onun xaricdən aldığı sifarişləri əsasında sosial şəbəkələrdə müxtəlif səpgilərdə söyüş və təhqirlər yağdırmaqdadırlar. O da məlumdur ki, Ə.Kərimlinin trollarına başqanlığı İlham Hüseyn edir. Düzdür, digəri Emil Səlimov olsa da, əsas "yük" məhz İ.Hüseynin üzərindədir.***




Bu arada, Ə.Kərimlinin troll başqanı İ.Hüseyn bir neçə gün öncə növbəti statusunu paylaşaraq, guya sifarişlər əsasında fəaliyyət göstərmədiklərini, yəni qrantyeyən olmadıqlarını sübut etməyə çalışıb. Lakin onun bu cəhdi özünüifşa ilə nəticələnib. Daha doğrusu, bilavasitə AXCP sədrinin təlimatları və tapşırığı ilə paylaşılan status və postlarda dövlət və hakimiyyət maraqlarına tərəf olan rəylər dərhal silinib. Əslində, bu birinci hal deyil və əks rəylərin silinməsi faktı da sübut edir ki, Ə.Kərimli ümumiyyətlə, demokratik fərd deyil, əksinə, avtoritar idarəçidir. O cümlədən, o azad söz və fikrə, müstəqil düşüncə prüalizminə qarşı kifayət qədər dözümsüzdür, yəni antidemokratikdir. Bu baxımdan, istər AXCP, istərsə də "Milli Şura"nın "demokratik qüvvələr" kimi ictimaiyyətə sırınmasına cəhd edilməsi cəmiyyət tərəfindən səmimi qəbul edilmir.

### Məgər bu addımın özü Ə.Kərimlinin və tərəfdarlarının antidemokratik olmaları ilə yanaşı, həm də qrantyeyən olduqlarını isbatlamırmı?

Misal üçün, bir faktı dəyərli oxucularımızın diqqətinə çatdıraq: Belə ki, Ə. Kərimli Sevinc Osmanqızının kanalında guya qrantyeyən olmadığını iddia etmək istədi və bir gün sonra onun trollarına rəhbərlik edən İ.Hüseyn sözügedən postu paylaşdı. Nəticədə dövlətçilik maraqlarından çıxış edən sosial şəbəkə fəalları AXCP sədrinin yalan danışdığını, özünü reklam etdiyini və s. sübutları ortaya çıxardılar və...

Əlbəttə ki, İ.Hüseyn dərhal həmin rəyləri sildi, üstəlik əks-rəylər yazan fəal sosial şəbəkə istifadəçilərini blokladı. Sual yaranır: əgər sizlər bu qədər azad fikir, demokratiya tərəfdarı, sərbəst mübarizə aparanlarsınızsa, nəyə görə tənqidlərə qəbul etmir, üstəlik, ac qurdlar kimi tənqid edənlərə qarşı hücuma keçərək, amansız təhqirlər, söyüşlər yağdırır, sonra da onları bloklayırsınız? Məgər bu addımın özü Ə.Kərimlinin və tərəfdarlarının antidemokratik olmaları ilə yanaşı, həm də qrantyeyən olduqlarını isbatlamırmı? Söz yox ki, bu suallar onlara dəfələrlə verilib, sadəcə həmin suallar onlara öldürücü siyasi zərbədir və həqiqəti üzə çıxarır. O cümlədən, əks rəylər yazılarkən, onlara qrantlar ayıran xarici təşkilatlar verdikləri təlimatlarının işləmədiyini iddia edib, həmin qrantları kəsirlər.

### Qrant vəsaitlərinin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Əli Kərimlinin şəxsi büdcəsinə daxil olub!

Bəs Ə.Kərimli necə qrantyeyənlik edir və aldığı məbləğlər haradan, niyə qaynaqlanır? Bu sualın da cavabı bəsitdir. Aparılan araşdırmalar da göstərir ki, AXCP sədrinin ətrafında müxtəlif siyasiləşdirilmiş QHT-lər birləşiblər və həmin QHT-lərə Qərbin bəlli təşkilatları on minlərlə, yüz minlərlə dollar qrantlar ötürürlər. Təbii ki, təlimatlar, sifarişlər və s. də öz yerində.

Misal üçün, Milli Demokratiya İnstitutu tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti və Qeyri-Dövlət İştirakçıları proqramları çərçivəsində 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2.7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, "Revenue Watch Institute" (ABŞ) 30000 dollar, "Asiya İnkişaf Bankı" üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın "Kounterpart İnternеşnl" Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210.000 dollar, ABŞ-ın Marşal Fondundan (GMF) 21800 dollar, Avropa Birliyindən 120.374 avro, 250 min avro isə əldə olunub.

Ümumilikdə, AXCP-yə yaxın QHT-lərə təxminən 800 min dollar vəsait ayrılıb ki, bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Əli Kərimlinin şəxsi büdcəsinə daxil olub.

### Buna isə dövlətə xəyanət adından başqa heç bir adı vermək olmaz!

Fakt budur ki, yuxarıda adları çəkilən təşkilatlar hələ bəlli olan qrantlar və məbləğlərdir və kölgə təşkilatlar da mövcuddur ki, onları da buraya əlavə etsək, ümumi hesablamalara görə Ə.Kərimlinin son 10 ildə qrant biznesindən əldə etdiyi gəlirlər 10 milyon dolları əks etdirər! Və əgər, AXCP sədrinin baş trolu İ.Hüseyn bu hesablamaları "qərəz" hesab edirsə, qoysun kalkulyatoru qarşısına, hesablamalarını da özü eləsin.

Yeri gəlmişkən, biz bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə etsək, daha çox milyonluq rəqəmlərin şahidlərinə çevrilmiş olarıq. Bu baxımdan, 100% əminliklə nəticəyə gəlmək mümkündür ki, AXCP sədri və onun baş trolları dövlət maraqlarını, milli maraqları anti-Azərbaycan siyasi dairələrinə və həmin dairələrə pul buraxan erməni lobbisinə görə məmnuniyyətlə satırlar. Buna isə dövlətə xəyanət adından başqa heç bir adı vermək olmaz.

***Rövşən RƏSULOV***

***P.S. Ümidvarıq ki, müvafiq strukturlar bu məsələni diqqətə alıb, lazımi tədbirləri görəcəklər...***

# Müxalifətin erməni lobbisindən sifariş aldığı sübuta yetirilir

***Bakıda çox yüksək səviyyədə baş tutan "Formula-1" yarışları ərəfəsi və yarışların keçirildiyi zaman müxalifət partiyaları xüsusilə də, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və onlarla eyni mövqedən çıxış edən qondarma vəkil Aslan İsmayılov uğurlara kölgə salmağa və erməni dəyirmanına su tökməyə hesablanan mövqe sərgilədilər. Söhbət etdiyimiz müsahiblərimiz bu şəxslərin xaricdən təlimat alaraq pozuculuq yolu tutduqlarını bildirdilər.***

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxalifətin təlimatlandırılmasında xaricdəki erməni lobbisinin rolu var"



- Müxalifət partiyaları və onların ətrafında olan şəbəkə, həmçinin xaricdəki anti-Azərbaycan qüvvələr "Formula-1" ərəfəsində çox ciddi şəkildə təxribatlar törətməyə cəhdlər göstərdilər. İlk öncə onlar ortaya "Formula-1"in keçirilməsinə qarşı 3 tezis qoydular. Birinci dedilər ki, "Azərbaycanın "Formula-1"i keçirtməkdə heç bir marağı yoxdur, sadəcə yarış fərdlərin marağına xidmət edir. Bu heç bir iqtisadi divident gətirmir". Amma Prezidentin köməkçisi Əli Həsənov çıxış etdi və faktlarla göstərdi ki, bu yarışın keçirilməsindən Azərbaycan 270 milyon manatdan çox gəlir əldə edəcək. Eyni zamanda, ölkədə buna uyğun infrastruktur formalaşır, Azərbaycan xaricdə çox ciddi şəkildə təbliğ olunur və s.. Yəni çox əsaslandırılmış bir cavab qoydu ortaya və bununla da onların tezislərini alt-üst etmiş oldu. Bundan sonra ikinci bir tezis atılar ortalığa ki, niyə bunu Bakıda keçirirlər? Yenə də isbat olundu ki, dünyanın hər yerində bu tip yarışlar paytaxtlarda və mərkəzi hissələrdə keçirilir və əhali də buna normal yanaşır. Belə olanda bunlar digər yollara əl atırlar, amma hər dəfə də onlara çox operativ cavablar verildi və arqumentləri əllərində alındı. Nəhayət onlar görəndə ki, artıq tezisləri yoxdur, onda uydurma məlumatlar yaydılar və təxribata əl atdılar. Onlar İçəri Şəhərin guya dağıdılması haqqında bir yalançı sujetlər hazırlayıb yaydılar. İçəri Şəhər haqqında yayılan məlumatlar, təxribatlar ciddi bir məsələdir və demək olar ki, burda həm xaricdəki erməni lobbisinin, həm də ki, onların əl altısı olan qüvvələrin rolu var. Hüquq mühafizə orqanları məsələyə çox ciddi diqqət yetirməlidir. Çox yaxşı oldu ki, Azərbaycanın həm dövlət strukturları, həm də ictimaiyyəti bu məsələyə çox sərt reaksiya verdi və məlumatın yalan olduğunu isbatlaya bildi. Bununla da, müxalifət növbəti dəfə təbliğat məsələsində məğlubiyyətə uğradı. Ona görə ki, bu təbliğat tamamilə yalan faktlar üzərində qurulmuşdur və Azərbaycan cəmiyyəti bir daha onların yalançı olduğunun şahidi oldu.

### AGAAMC-nın sədri, fəlsəfə doktoru İlqar Orucov: "Müxalifət özü-özünü ifşa edib"

- Azərbaycanın hər bir uğuruna kölgə salmaq istəyən radikal müxalifət "Formula-1" Qran Prisi yarışları öncəsi də ənənəvi peşələrinə sadiqlik nümayiş etdirərək, ölkəmizə qarşı qarayaxma kampaniyasına başladılar. Bu qüvvələrin canfəşanlığı ilə xaricdəki milli satqınların və erməni lobbisinin maraqlarının eynilik təşkil etməsi də təsadüfi deyildi. Guya ölkəmizdə insan hüquqları pozulur, guya İçəri Şəhərdə tarixi qala divarları dağıdılır, guya bu yarışlar insanlarımızın rahatlığını pozur və sair bu kimi populist çağırışlarla insanları çaşdırmaq istəyən bu sapı özümüzdən olan baltaların məqsədi nəyin bahasına olursa-olsun ölkəmiz haqqında gələn minlərlə əcnəbi turistdə, yarışı izləyən, ona maraq göstərən ölkələrdə mənfi imic formalaşdırmaq idi. Məlum oldu ki, İçəri Şəhərlə bağlı paylaşdıqları görüntülər illər öncə qala bürclərindən birinin restavrasiyası zamanı çəkilmiş kadrlardır və həqiqətdən tamamilə uzaqdır. Bütün hallarda Birinci vitse-prezident hadisə yerinə getdi, insanlarla görüşdü və bəyan etdi ki, İçəri Şəhərdə heç bir tarixi abidə sökülmür və söküləde bilməz. Aslan İsmayılovun yaratmaq istədiyi bu şou bir anda puç oldu. Daha sonra yarış öncəsi kanalizasiya lyukunun çıxması ilə bolidin zədələnməsinə münasibətdə saxta və ürəkbulandırıcı bir şou yaratdılar. Halbuki, müxtəlif vaxtlarda və fərqli ölkələrdə - 2005-ci ildə Çin, 2010 və 2016-cı illərdə iki dəfə Monako Qran-prisində eyni hadisə baş verib. Yəni, bu kimi hadisələr formula yarışları zamanı istisna deyil və mümkündür. İnsanlarda guya yollarımızın formula yarışları üçün yararsız olması barədə rəy formalaşdırmaq cəhdləri də uğursuz oldu. Daha sonra, guya bu yarışların faydasız və iqtisadi imkanlarımıza əlavə yük olması ilə bağlı nağıllar uydurdular. Hansı ki, burada heç bir yükdən söhbət gedə bilməzdi. Çünki, artıq mövcud infrastruktur daha az xərclə bu yarışları keçirməyə imkan yaradırdı. Eyni zamanda, ölkəmizə ifrat turist axınının olması təkcə bütün xərclərin qarşılanması ilə deyil, yarışdan milyonlarla dollar iqtisadi dividentlər əldə etməyimizə səbəb olmuşdu. Bu adamların gətirdiyi bütün arqumentlər sadəcə uydurma və böhtandan başqa bir şey deyildi və əsassız iftiralar idi. Məqsəd ölkəmizin uğurlarından yaranan narahatçılıq, dövlətimizin uğurlarının fonunda özlərinin uğursuzluqlarını həzm edə bilməməkdən ibarət idi. Həm də, xarici qrantlar hesabına "fəaliyyət" göstərən bu insanlar özlərinin varlığını sanki nümayiş etdirirdilər kimi davranırdılar. Bu vəsaitlərdən daha çox yararlanmaq üstündə bir-biri ilə vuruşan, ən iyrənc formada bir-birilərinin ünvanına aşağılayıcı ifadələr işlədən bu qüvvələr, məhz "Formula-1" Qran Prisi kimi nüfuzlu yarışın keçirilməsinə mane olmaq, Azərbaycanın imicinə xələl gətirməklə bağlı aldıqları göstərişlərin realizəsini sübuta yetirmək, aldıqları pulların hesabatlarını vermək istəyirdilər. Təbii ki, radikalların bütün iyrənc planları kimi, bu dəfə ki istəkləri dövlətimizin "Formula -1" yarışları ilə bağlı mükəmməl təşkilatçılığı qarşılığında iflasa uğradı.



***GÜLYANƏ***

# Qənimət Zahid ermənilərə necə işləyir?

*Yaxud "Azərbaycan saatı"nın "əqrəbləri" düşmənin yeni layihəsi kontekstində*

***Fransada yaşayan və "Azərbaycan saatı" adlı qondarma verliş yayımlamaqla altında dağıdıcı və satqın müxalifətin xəyanətkar siyasətini yürüdən Qənimət Zahidin daha öncələr də erməni lobbisinin pulları hesabına təlimatlandırılması barədə kifayət qədər yazılıb və deyilib. Yəni bu barədə faktlar, sübutlar necə deyərlər, "N" qədərdir. Lakin onun hal-hazırda açıq-aşkar şəkildə ermənilərin Azərbaycan torpaqlarını işğal etməsinə dəstək verməsi artıq bütün hədləri aşdığını göstərir. İstər sətiraltı, istərsə də açıq qaydada Azərbaycan dövlətinin əleyhinə, Ermənistanın isə lehinə fikirlər səsləndirən Q.Zahid əlində olan bütün imkanlardan maksimum istifadə edir.***




## Əli Kərimlinin trolları belə, bəyənmələrin sayını artıra bilmirlər

Bəlli layihəsi vasitəsi ilə dövlət və xalq maraqlarına qarşı düşmən kəsilən xain şəxsləri "Azərbaycan saatı"na dəvət edib, erməni lobbisinin tezislərinə uyğun fikirlərin səsləndirildiyi həmin verlişə isə əlbəttə ki, mənfi rəylər daha çox yazılır, "Youtibe"də dislaykların (bənəyilməyən işarəsi-R.R.) sayı durmadan artır. Hətta Əli Kərimlinin trolları belə, bəyənmələrin sayını artıra bilmirlər. Bu isə sosial şəbəkə istifadəçilərinin əksə çoxluğunun sözügedən xainlikləri birmənalı şəkildə rədd etməsi anlamını isbatlayır.

Beləliklə, sual: Q.Zahid necə, hansı üsulla ermənilərə işləyir? Məsələ ondadır ki, verlişlərinin birində Q.Zahid Azərbaycanın cəbhəyanı Tərtər rayonunu "sərhədyanı ərazi" olaraq təqdim edib. Maraqlısı da budur ki, uzun illər "Azadlıq" qəzetinə baş redaktorluq eləmiş bu ünsürün bilərəkdən Tərtər rayonunu "sərhədyanı" adlandırması kimsədə şübhə doğurmur. Daha dəqiq desək, adam ən azından, illər boyu bu qəzetə rəhbərlik edib və siyasi incəliklərdən də xəbərsiz deyil.

## Azərbaycanın cəbhəyanı ərazilərini "sərhədyanı" olaraq təqdim elə, bu vasitə ilə "DQR"-i "ərazi vahidi" kimi sətiraltı şəkildə ictimailəşdir və al qrantları nə qədər istəyirsən!

Bu baxımdan, Q.Zahidin qəsdən, bilərəkdən erməni dəyirmanına su tökməsi də şübhəsizdir. Çünki erməni lobbisinin xarici təşkilatlar vasitəsi ilə verdiyi tezisdə həmin amil tələb kimi qarşısına qoyulub - Azərbaycanın cəbhəyanı ərazilərini "sərhədyanı" olaraq təqdim elə, bu vasitə ilə "DQR"-i "ərazi vahidi" kimi sətiraltı şəkildə ictimailəşdir və al qrantları nə qədər istəyirsən! Yəni bu fakt sübut edir ki, Q.Zahid ermənilərin yeni layihəsini həyata keçirir. Həmin layihənin təlimatçılarından biri isə nə qədər təəccüblü görünməsə də, "Sülh və Demokratiya İnstitunun" rəhbəri Leyla Yunusdur. Əgər onu da xatırlasaq ki, L.Yunus dəfələrlə (!) Azərbaycanın milli dövlətçilik maraqlarını erməni maraqlarına satıb, bu zaman nəyin-nə olduğunu nəticələndirmək çətin deyil.

Fakt isə budur ki, bu gün "xalqım", "millətim" bağırıb, mitinqlər tələb edən dağıdıcı müxalifətin tərkib hissəsi sayılan ünsürlər reallıqda birbaşa düşmən qoltuğuna sığınıblar və nə zamansa, bütün bunlara görə mütləq, amma mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

*Rövşən RƏSULOV*

# "Nar" eşitmə məhdudiyyətli insanlar üçün peşə təlimlərinə başlayır

***"Nar" fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiyası üçün korporativ sosial məsuliyyət (KSM) layihələrini davam etdirir. Mobil operator eşitmə məhdudiyyətli insanların müxtəlif ixtisaslara yiyələnməsi və onların işlə təmin olunması üçün növbəti "Təlim məktəbi" layihəsinə start verir. "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşacaq layihə çərçivəsində üç qrupdan ibarət olan vətəndaşlar üç aylıq peşə kurslarında təlim keçəcəklər. İştirakçılar aşpaz, şirniyyat ustası, motorçu və s. kimi ixtisaslara yiyələnəcəklər. Layihə təcrübəli mütəxəssislər tərəfindən aparılacaq.***

Qeyd edək ki, "Nar" tərəfindən təşkil edilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların yeni bacarıqlar əldə etməklə cəmiyyətə inteqrasiyasına dəstək olmaq məqsədi daşıyır.

"Nar"-ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, mobil operator fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiya olunması üçün uzun müddətdir ki, uğurlu layihələr icra edib: "Artıq 3 ildən çoxdur ki, eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşəyə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə veririk. Məqsəd fiziki məhdudiyyətli şəxslərə mənəvi dəstək göstərməklə yanaşı, onları cəmiyyətə inteqrasiya etməkdir. Layihə ilkin olaraq paytaxtda yaşayan eşitmə məhdudiyyətli insanları əhatə edəcək. Gələcəkdə isə bütün bölgələrdən olan eşitmə məhdudiyyəli şəxslər üçün peşə təlimlərinin keçirilməsini nəzərdə tuturuq".

"Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abasov isə bildirib ki, eşitmə və danışma məhdudiyyəti olan insanların cəmiyyətə inteqrasiya olunması istiqamətində mövcud olan problemlərin həlli cox vacibdir: "Əsas məqsədimiz bu insanların normal həyata qaytarılmasına, sosial və maddi, hüquqi, mülki və qanunvericiliklə bağlı problemlərinin həllinə kömək etməkdir. Eşitmə məhdudiyyətli insanlar müəyyən peşəyə yiyələnməklə həyatlarını maddi və mənəvi cəhətdən asanlaşdırır. "Təlim peşəsi" layihəsi eşitmə məhdudiyyətli insanların təhsil almasından sonra işlə təmin olunmasına yardım edəcək." "Nar"-ın korporativ sosial sosial məsuliyyət (KSM) strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



Təhmasib Novruzov

# Əli Kərimlinin "neynim"ləri

Başqalarını deyə bilmərəm, amma məni bu məmləkətdə hər şeydən çox narahat edən demokratik cəmiyyətin əsas atributlarından olan müxalifətin formalaşa bilməməsidir. Başqa ölkələrin yüz ilə qət etdiyi (o da qət edə bilsələr) yolu cəmi 25 illik zaman kəsiyində arxada qoyan bir ölkədə normal, sivil müxalifətin formalaşa bilməməsi, gerçəkdən narahatedici faktdır.

Bir neçə gün öncə olmayan "müxalifət"in yetişməyən "lider"i (lap nağıllarda deyilən "bitməmiş yovşan kolunun dibindən anadan olmamış dovşanın qaçması" kimi) Əli Kərimlinin, özünü müxalifət tribunası adlandırıb da şər, böhtan kampaniyası aparan "Osmanqızı TV"-də Sevinc Osmanqızına verdiyi müsahibəyə baxdım. Əlbəttə, Əlinin nəsə bir dəyərli fikir söyləməsini gözləmirdim. Sadəcə, istədim görüm bu zavallı az da olsa ölkədəki son sosial islahatlardan sonra iqtidarın ünvanına bir kəlmə də olsun xoş söz söyləyəcək, yoxsa yox, amma hardan? Özünü müxalifət lideri hesab edən bu adamcığazın ampluasından da bir milli də olsa kənarlaşmaq fikrində olmadığının yenidən şahidi oldum. Ampluasını o qədər sevir və ya zorla sevdirirlər ki, adam ordan çıxmaq istəmir ki, istəmir. İndiyə kimi yaxmağa çalışdıqları, amma öz üzərlərinə bulaşdırdıqları qaralarına öyrəşmişik. Odur ki, belə qarayaxmalardan danışıb vaxtınızı almaq fikrində deyiləm. Amma bu dəfə yarım saata yaxın iqtidarın tarixi abidələri, xüsusilə İçəri Şəhəri "viran"(?) qoymasından necə sərsəmlədisə, bu ölkədən xəbərsiz hər kəs düşünərdi ki, indiki hakimiyyət (əstəğfurullah) bu millətin düşmənidi. Gədə qırığı deyir ki, "İçəri Şəhəri elə günə qoyublar ki, orda tarixin bütün izləri yox olub". Onun bu barədə dediklərinin hamısını sadalamağa ehtiyac görməyib, keçirəm mətləbin bir başa ortasına. Mənim kifayət qədər yaşım var. Sovet dövründə də az yaşamamışam. Xatırlayıram ki, 1970-ci illərə qədər İçəri Şəhər elə günə salınmışdı ki, sanki Bakının zibilxanası idi. İlk dəfə məhz 70-ci illərdə İçəri Şəhərlə bağlı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə xüsusi qərar qəbul edildi və qədim Bakının bu möhtəşəm abidəsi dövlət qoruğu elan edildi. Sonrakı dövrlərdə müxtəlif hakimiyyətlər, digər sahələrdə olduğu kimi bu sahədə də, yumşaq desək yaritmazlıq nümunəsi göstərmiş və baxımsızlıq ucbatından İçəri Şəhər bərbad günə qalmışdı. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Novruz bayramı şənliklərində İçəri Şəhəri başdan-ayağa gəzdi və gördüklərindən o qədər pəjmürdə oldu ki, dərhal müstəqil dövlətin Prezidenti kimi yeni, daha dəyərli, deyərdim ki, İçəri şəhəri xilas edən tarixi qərar qəbul etdi. Bu qərardan ötən iyirmi beş il ərzində burda ciddi abadlaşdırma işləri aparılmış və aparılmaqda davam edir. Həm də tarixi memarlıq abidələrinin ruhunu belə incitmədən, olduğu kimi aparılan bu abadlıq işlərinin nəticəsidir ki, bu gün İçəri Şəhər dünyanın hər yerindən Bakıya gələn turistlərin heyranlığına səbəb olur. Bütün bunları bildiyi halda, "İçəri Şəhəri dağıdırlar" deyib, saxta vətənpərvərlik göstərmək cəhdinin hansı məqsədi güddüyü məlumdur. Aşığın sözü qurtaranda "neynim aman, neynim" dediyi kimi, bu bədbəxt də deməyə söz tapmır və indi də yapışır tariximizin "məhv edilməsi" mövzusundan.

Bu hakimiyyətin bərpa etdirib, yenidən xalqın tarixi irsi kimi dünyaya təqdim etdiyi o qədər memarlıq və dini abidələr var ki, saymaqla bitməz. Atəşgahın, Qobustanın, Bibi-Heybət, Təzə Pir, Şamaxı, İmamzada məscidlərinin, regionlardakı saysız-hesabsız tarixi abidələrin əsaslı təmir və bərpasının aparılmasına sərəncam verən iqtidar doğrudanmı tariximizə biganədir? Dədə Qorqudun 1300 illik yubileyini keçirən, adına abidə kompleksi ucaldan, Nizami Gəncəvinin türbəsinin ətrafını kiçik bir şəhərə çevirən, Füzulinin, Nəsiminin yubileylərinin dünya miqyasında qeyd edilməsinə nail olan, Muğam, Novruz bayramı, Aşıq sənəti, Kəlağayı və s. kimi tariximizin yaratdığı milli incilərin YUNESKO-nun qeyri-maddi irs siyahısına salınmasına nail olan iqtidarı tariximizə qənim(?) adlandırmaqdan böyük nankorluq olarmı? Azərbaycan tarixində xalqın yaratdığı maddi və qeyri-maddi irsə, milli-mənəvi dəyərlərə heç zaman (o cümlədən Əlinin təmsil olunduğu hakimiyyətin də dövründə) indiki qədər həssas və qayğılı yanaşma olmamışdır. Bunu bildiyi halda belə nankorluğun özü xalqa ən böyük düşmənçilikdir və müxalifət adlandırılan bu ağızəyirlərin belə mövqeyini görüb də, bizdə sağlam müxalifətin formalaşa bilmədiyindən rəncidə olmağına dəyər. Təəssüf! Min kərə, milyon kərə təəssüf!

# İnsan hüquq bərabərliyinin gerçəkləşdirilməsinin etibarlılığı

***Nəzərdən keçirilən problem üzrə elmi araşdırmaların ümumiləşdirilməsinə əsaslanaraq, azadlığın gerçəkləşdirilməsinin ən universal forması, fikrimizcə, hüquqdur. Böyük alman filosofu G.Hegel belə bir nəticə çıxarmışdır ki, hüquq - azadlığın obyektiv mövcudluq formasıdır.***

Cəmiyyətdə hər bir fərdin azadlığını gerçəkləşdirmək, insan hüquqlarının bərabərliyini və etibarlılığını təmin etmək məqsədi daşıyan bir institut kimi hüququn əsl məzmununun öyrənilməsi cəhdləri dəfələrlə olub və hazırda da buna cahd edilir. Bu cəhdlər müstəqil elm sahəsi kimi hüquq fəlsəfəsinin yaranmasına səbəb olub. Bu fənn - hüquq fəlsəfəsi hüququn mənasının, onun mahiyyət və anlayışının, dünyadakı yerinin, dəyər və əhəmiyyətinin, onun insanın, cəmiyyətin, beynəlxalq-hüquqi dövlətin və bütövlükdə, bəşəriyyətin həyatında rolunun öyrənilməsi ilə məşğul olur.

Hüquq haqqında fəlsəfi elmin predmeti hüquq ideyası - onun anlayışı və həyata keçirilməsidir. G.Hegel qeyd edirdi ki, "hüquq haqqında elm fəlsəfənin bir hissəsidir. Ona görə də, o, predmetin şüuru olan ideyanı anlayışdan inkişaf etdirməlidir...". G.Hegel daha sonra yazır: "Hüquq ideyası azadlıq deməkdir, onun həqiqi anlamına yalnız o zaman nail olunur ki, o, məfhumda və bu məfhumun indiki mövcudluğunda dərk edilir".

"Hüquq fəlsəfəsi" termini ilk olaraq hüquq elmində yaranıb. Onun müəllifi holland hüquqşünası Quqo Qrotsidir. O, "pozitiv hüquq fəlsəfəsi" (norma yaradıcılığı, qanunvericilik) terminini daha qısa ifadə etmək üçün "hüquq fəlsəfəsi" istilahından istifadə etmişdir. "Hüquq fəlsəfəsi" termininin daha geniş yayılması isə Hegelin adı ilə bağlıdır. Hegelə görə, hüquq fəlsəfəsi fəlsəfi elmdir, daha Quqo Qrotsinin dediyi kimi, hüquqi elm deyil. Alimin fikrincə, hüquq fəlsəfəsinin başlıca vəzifəsi hüququn əsasında olan fikirlərə çatmaqdır. Bu isə yalnız hüququn mahiyyət aspektlərinin fəlsəfi dərki vasitəsilə mümkündür.

Hüquq fəlsəfəsi xüsusiyyətlərinin bir fənn kimi hüquq və ya fəlsəfə elmi qismində müəyyənləşdirilməsi haqqında məsələyə Quqo Qrotsiyə və Hegelə istinadən iki yanaşma sonradan XIX-XX əsrdə fəlsəfi-hüquqi tədqiqatlarda inkişaf etdirilmişdir. İ.V.Derqaçovun fikrincə, hüquq haqqında fəlsəfi elmin vəzifəsi hüququn mahiyyətinin və digər sosial təzahürlərlə hüququn qarşılıqlı əlaqəsinin öyrənilməsindən, insanın mahiyyətindən doğan təbii hüquq prinsiplərinin əsaslandırılmasından, təbii və pozitiv hüquq arasında nisbətlərin təhlilindən ibarətdir. Bu elm hüquqa, onun əhəmiyyətinə və insanlar üçün, hər bir adam üçün təyinatına dünyagörüş şərhi vermək, onu insanın varlığının mahiyyəti, ondakı dəyərlər sistemi baxımından əsaslandırmaq məqsədi daşıyan elm kimi ortaya çıxmağa başlayır. Nəticədə, insan, cəmiyyət, dövlət, azadlıq, insan hüquqları, qanun kimi anlayışlar da daha dərindən aydınlaşdırılır.

LV.Derqaçovun haqlı olaraq, qeyd etdiyi kimi, hüququn azadlığını gerçəkləşdirilməsi forması kimi dərk olunma prosesinin bundan sonrakı inkişafı, onun insanların həyatındakı rolu hüququn öz təyinatına onun potensialına yaxınlaşmağa imkan verən biliklərin fəlsəfə ümumiləşdirilməsi olmadan mümkün deyil. Bu gün həmin problem üzrə mövcud araşdırmalar əsasında (V.A.Kuçinski) nəticə çıxarmaq olar ki, hüququn fəlsəfi mahiyyəti azadlığın cəmiyyətdə real təcəssüm imkanının və hər bir insanın hüquqlarına zəmanət verilməsinin təmin olunmasından ibarətdir. Hüququn təbiəti, hüquqi tənzimləmənin xüsusiyyətləri və hüququn məntiqi ilə bağlı məsələlərə gəlincə isə onların araşdırılması gələcək tədqiqatların predmetidir. R.Məmmədov, A.İsmayılova və C.Hacıyev qeyd edirlər ki yuxarıda göstərilənlər nəzərə alınmaqla, "azadlıq", "insan hüquqları" və "hüquq" anlayışlarının dərk olunmasında inteqrasiyalı yanaşmadan istifadə etməklə tarixi dünya təcrübəsinin və hüququn aliliyi prinsiplərinin araşdırılması və ümumiləşdirilməsi maraqlı və mənalı görünür.

Beləliklə, göstərilmiş mövzunun tədqiq edilməsi zamanı əsaslı olan bir sıra suallar yaranır;

- "azadlıq" və "insan hüquqları" anlayışlarının əsl məzmunu və hüquqi mahiyyəti necədir?;
- cəmiyyətin həyatında azadlıq və insan hüquqlarını hansı vasitələrlə praktiki gerçəkləşdirmək olar?;
- göstərilən reallaşmanın hansı səbəb və şərtləri var?;
- azadlığın məhdudlaşdırılmasında əsas dəyər meyan nədir?:
- azadlığın gerçəkləşdirilməsinin, habelə insanın hüquq və azadlıqlarının genişləndirilməsi imkanlarının hansı perspektivləri var?

Məlum olduğu kimi, insan hüquqlarının inkişafında mühüm addım XVII-XVIII əsrlərdə baş vermiş burjua-demokratik inqilalarıdır. Bu inqilablarda təkcə geniş insan hüquqları deyil, həm də insan hüquqlarının universallığının asasına çevrilən və ona əsl demokratiklik xarakteri verən formal bərabərlik prinsipi də irəli sürülürdü. İnsan hüquqlarının genişləndirilməsində və inkişafında növbəti mərhələ XX yüzilliyin ikinci yarısı oldu. İnsan hüquqlarının kobudcasına kütləvi pozuntuları ilə müşayiat olunan İkinci Dünya müharibəsindən sonra bu hüquqlar dövlətdaxili problemlər hüdudundan çıxaraq beynəlxalq birliyin daimi diqqət predmetinə çevrildi. Ümumdünya insan hüquqları Bəyannaməsinin və bir sıra digər mühüm beynəlxalq hüquqi aktların tanınması XX əsrin sivilizasiya və mədəniyyətinin inkişafına qiymətli töhfə oldu. Dövlət konstitusiyanın və qanunun aliliyini nəzərdə tutan hüquqi dövlət prinsipbrinə əsaslanaraq, şəxsiyyətin sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlarının səmərəli reallaşmasını təmin etməli və bunun üçün lazımi şərait yaratmalıdır.

Qeyd etmək lazımdır ki, insan hüquqları heç də həmişə gerçəkləşdirilmədiyi üçün onların həyatda təcəssüm olunması problemi xüsusilə aktualdır. Bu məsələyə nəzəriyyəçilər və praktiklər tərəfindən böyük diqqət yetirilməsinə baxmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının reallaşması mexanizmlərinin öyrənilməsini başa çatmış hesab etmək olmaz. Konstitusiyalara gəlincə isə, onlar cəmiyyət həyatının müəyyən mərhələlərində qəbul edilərək, daim insan hüquq və azadlıqları ilə tamamlanırdı. Lakin təəssüf ki, bu halda da bərabərhüquqlu həyatla cəmiyyətdə bütövlükdə hamı deyil, yalnız bu cür cəmiyyətin müəyyən hissəsi olan "hakim təbəqə" təmin edilirdi.

Məlum olduğu kimi, konstitusiya ayrı-ayrı insanlar, cəmiyyət və dövlət üçün daha mühüm və sosial əhəmiyyətli olan hüquq və azadlıqları təsbit edir. İnsandan ötrü bunlar insan şəxsiyyətinə xas olan şərəf və ləyaqətin təmin olunmasının zəruri şərtləridir; üzvü olduğu cəmiyyətin qurulması və idarə olunması məsələlərinin həllində təbii iştirak hüququdur; onun maddi və mənəvi tələbatlarının təmin edilməsi üçün vacib olan sosial və iqtisadi şəraitlərdir.

Ona görə də, dövlətlərin konstitusiyalarında və mühüm beynəlxalq-hüquqi aktlarda təsbit olunmuş əsas fundamental hüquqlar törəmə hüquqlar, lakin heç də az əhəmiyyətli olmayan hüquqlar üçün hüquqi bazadır. Bir sıra müəlliflərin fikrincə, "insan hüquqları və azadlıqları" və "şəxsiyyətin hüquq və azadlıqları" anlayışları onların təsbit olunmasının və mövcudluğunun konstitusiya-hüquqi formaları baxımmdan üst-üstə düşür. Konstitusiya normalarmın təhlili də bunu sübut edir. Lakin insanın şəxsiyyət kimi tanınması üçün onun meyilbri, əqidəsi, ideallan və baxışlan əsaslı əhəmiyyət kəsb etmir. Müəyyən hüquqları olan və dövlətin müəyyənləşdirdiyi vəzifələri daşıyan hər hansı insan şəxsiyyətdir. Bununla əlaqədar olaraq, insan hüquqları və şaxsiyyətin hüqquqları üst-üstə düşür. O.A.Snejkonun fikrincə, şəxsiyyat - vətəndaş cəmiyyəti sahəsində insan kimi, siyasi həyat sahəsində isə vətəndaş kimi çıxış edir. Hesab edirik ki, mahiyyət keyfiyyətləri olmadan - hansısa firavanlığı təmin etmək mümkünsüz olanda əsas hüquq da yoxdur. O, konstitusiya hüquqlarına da, əsas beynəlxalq hüquqlara da, hüquq normalarında təsbit olunmayan əsas hüquqlara da (yaxınlarının sevilməsi hüququ, nəfəs almaq hüququ və s.) eyni dərəcədə uyğun gəlir.

L.D.Voyevodin hesab edirdi ki, mümkünlük - bu, müəyyən şərait-də gerçəkliyə çevrilə bilən, həqiqət ola bilən bir şeydir. "Bu, konstitusiya və qanunlarda təsbit edilmiş şəxsiyyətin bütün hüquq və azadlıqlarına tam şamil olan mümkünlük xüsusiyyətidir. Mümkünlüyün bu cür təfsirində, ilk növbədə, onun mövcud şərtlərlə təmin olunan gerçəkliyə çevrib bilmək qabiliyyəti qeyd edilməlidir". Bu, o deməkdir ki, insan yalnız digər şəxslərin. dövlət orqanlarının, ictimai birliklərin fəal köməyinə, yardımına arxalanaraq, özü də bu halda onların fəaliyyətindən şəxsi məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edərək və ya əksinə, onların müdaxilə etməməsinə ümid bəsləyərək, hüquqda təsbit olunmuş mümkünlüyü reallaşdıra bilər. Müəyyən şəraitdə sosial firavanlığa malik olmaq mümkünlüyü digər bir mümkünlüyü - əsas hüququn reallaşmasına kömək, digər şəxslərin yardımını və ya müdaxilə etməməsini tələb etmək mümkünlüyünü istisna etmir, əksinə nəzərdə tutur. İnsanın əsas hüququnun onun əsl keyfiyyəti - hüquqi mümkünlüyü vasitəsilə müəyyənləşdirilməsi özünü tam doğrultmuşdur. O, beynəlxalq və konstitusiya hüquqi dövriyyəsinə, əsas insan hüquqlarının konstitusiya institutunun başlıca kateqoriyalarının tərkibinə möhkəm daxil olmuş və zamanın sınağından çıxmışdır. Fikrimizcə, hər bir əsas hüquq və azadlığın başlıca keyfiyyəti olan rifah əldə etməyin mümkünlüyü onun məzmununun əsasını təşkil edir və əsas insan hüquqlarının məğzini anlamağa kömək edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Xatırladaq ki, demokratik dövlətin konstitusiyalarında əsas hüquq və azadlıqların insan və vətəndaşın hüquq və azadlıqlarına ayrılması aparılır. Vətəndaşın hüquqları fərdin dövlətə münasibətləri sahəsini əhatə edir. Burada o, təkcə öz hüquqlarını dövlətin qanunsuz müdaxiləsindən qorumağa deyil, üstəlik, onların gerçəkləşdirilməsi üçün fəal yardıma bel bağlaya bilər. Vətəndaşın statusu onun dövlətlə xüsusi hüquqi əlaqəsindən - vətəndaşlıq institutundan yaranır. Söhbətin insan hüquqlarından getdiyi hallarda "hər bir kəsin hüququ var", "hər bir kəsə zəmanət verilir" və s. kimi ifadələrdən istifadə olunur. Bu isə, insanın ölkə vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olmasından asılı olmayaraq, həmin dövlətin ərazisində olan hər hansı insanın hiquqi və azadlıqlarnın tanınmasını təsdiqləyir. Konstitusiya hüquq və azadlıqları dövlətin və vətəndaşın iştirak etdiyi konstitusiyon hüquq münasibətlərinin başlıca elementidir. Vətəndaş üçün bu cür hüquq münasibətlərinin mənası öz hüquqlarının qorunmasını əldə etməkdən, dövlət üçünsə bu müdafiəni öhdəliklərdə təqdim etməkdən ibarətdir. M.V.Baqlayın göstərdiyi kimi, əsas hüquq və azadlıqlar dövlət tərəfindən təkcə tanınmır, həm də qorunur. Çünki konstitusiya ib təsbit olunmuş hüquqları mənası ondan ibarətdir ki, məhz onların həyata keçirilməsi dövlətin demokratik və hüquqi dövlət kimi elan olunmasını təmin edir. İnsanın hər hansı dövlətdə olmasından asılı olmayaraq, o, dünya birliyinin, vətəndaşı olduğu öz dövlətinin, həmçinin, hazırda olduğu dövlətin müdafiəsi altında olan azad varlıqdır. Bu azadlıq dövlət tərəfindən bağışlanmayaraq (belə bir müddəa əvvəlki konstitusiyada da vardı), anadangəlmə ona məxsusdur.

Konstitusiya hüquq və azadlıqları şəxsiyyətin hüquqi statusunun özəyidir və hüququn başqa sahəbrinin təsbit etdiyi digər hüquqların əsasında durur. Konstitusiya isə yalnız cari qanunvericiliyin söykənməli olduğu prinsipləri müəyyənləşdirir. N.S.Bondarm fikrincə, fəqət konstitusiya hüquq və azadlıqları qeyri-şəxsləndirilmiş xüsusiyyətə malikdir. Belə ki, onlar konkret insana ünvanlanmayıb, hamıya şamil edilir, Sahə qanunvericiliyi, əsasən, həmin sahənin müəyyən şəxslərinə yönəlir (əmlak sahibləri, alıcılar, iddiaçılar, cavabdehlər və s.). Beləliklə, insan və vətəndaşın hüquq və azadlıqları anadangəlmə ona məxsus olan (lazımi hallarda onun vətəndaşlığına görə), dövlət tərəfindən qorunan, şəxsiyyətin hüquqi statusunun özəyini təşkil edən və yüksək hüquqi qüvvə alan ayrılmaz və ən mühüm hüquq və azadlıqlardır. Əgər əvvəllər bu və ya digər dövlətin konstitusiyasında sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara intəhasız sahiblik bəyan edilirdisə, indi isə konstitusiya quruluşunun, mənəviyyatın, sağlamlığın, digər vətəndaşların qanuni hüquq və mənafelərinin müdafiəsi məqsədilə insanın hüquq və azadlıqlarını qismən məhdudlaşdırmaq imkanı nəzərdə tutulur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 1 may





## “Breyn rinq” intellektual bilik yarışı keçirilib

Dünən Masallı rayon gənclər və idman idarəsinin və təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı “Breyn rinq” devizi altında gənclər arasında intellektual bilik yarışı keçirilib.

ASAN İntellektual İnkişaf Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Masallı rayon gənclər və idman idarəsinin rəisi Camal Manafov Ümummilli Lider Heydər Əliyevin keçdiyi və hər bir gəncə örnək ola biləcək şərəfli ömür yolundan danışdı. Bildirib ki, bu uğurlu siyasətin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev həmişə gənclərə diqqət və qayğı ilə yanaşır. Məhz bunun nəticəsidir ki, bu gün gənclərimiz nəinki ölkədə, ümumiyyətlə, ölkə hüdudlarından kənarda da respublikamızı layiqincə təmsil edirlər.

Tədbirdə rayon təhsil şöbəsinin metodisti Abbas Abbaszadə çıxış edərək, Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi dövrdə elmə və təhsilə göstərdiyi xüsusi diqqət və qayğıdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı gördüyü işlərdən söz açdı.

Gərgin və maraqlı şəraitdə keçən bilik mübarizəsində gənc müəllimlərlə yanaşı, ASAN könüllülərdən ibarət bir komanda da öz intellektual bilik səviyyələrini sınamışlar. Yarışın sonunda I yeri “Viktoriya” komandası ( Ağazadə Şəlalə, Əsgərova Gülər , Əhmədov Şahin , Dadaşlı Orxan , Cəfərli Xalis , Ağayeva Sara ), II yeri “Uğur” komandası (Əbülfəzova Sevil , Novruzov Qorxmaz, Qurbanov Ceyhun, Alışlı Əli, Zeynallı Tağı, Əsgərli Nahidə), III yeri isə “Xəmsə” komandası (Möhsümova Aytən, Cəfərli Günel, Abdullayev Abdulla, Mahmudova Röya, Quliyev Ümid, Kərimli Şəmruz) tutmuşdur.

Qalib komandalar rayon gənclər və idman idarəsi tərəfindən kubok və diplomlarla mükafatlandırılmışdır.

**RƏFİQƏ HÜSEYNOVA**

## ELAN

Şirvan şəhər sakini Mirzəyeva İlhamə Yavər qızına məxsus M.Ə.Rəsulzadə küçəsi bina 13 A, mənzil 7 ünvanında yerləşən mənzilin 14-06 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

“Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev kollektiv adından Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müvani Vüqar Əliyevə anası

**Şövkət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

***

Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Ümid Mirzəyev Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müvani Vüqar Əliyevə anası

**Şövkət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## “Dünya tarixinin Azərbaycanlı Dahisi” mövzusunda elmi konfrans keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı, rayon icra hakimiyyəti və AMEA-nın Tarix İnstitutunun birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Dünya tarixinin Azərbaycanlı Dahisi” mövzusunda elmi konfrans keçirilib. Konfrans iştirakçıları rayon təşkilatının foyesindəki Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər. Sonra “Müasir Azərbaycanın qurucusu” adlı sərgi ilə tanış olublar.***

Konfransı giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Ümummilli Lider Heydər Əliyevin sovet dövründəki fəaliyyətindən, Azərbaycana yenidən rəhbər gəldikdən sonra xilaskarlıq missiyasından danışıb: “Ulu Öndər Heydər Əliyevin titanik əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Ulu Öndərin qurduğu Azərbaycan bu gün Onun siyasi davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir”.

Konfransda çıxış edən AMEA-nın Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev deyəndə, həmişə müstəqil dövlətçiliyimizi, ölkəmizdə yaradılmış möhkəm sabitliyi, əmin-amanlığı, inkişaf və tərəqqini düşünürük. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqı, milləti və Vətəni qarşısında xidmətləri ölçüyəgəlməzdir.





Y.Mahmudov onu da bildirib ki, Ulu Öndər Heydər Əliyevin möhkəm siyasi iradəsi sayəsində həyata keçirdiyi dərin islahatlar bugünkü modern və dayanıqlı inkişaf yolu ilə gedən Azərbaycan Respublikasının qlobal miqyasda öz layiqli yerini tutmasında müstəsna rol oynayıb.

Tədbirdə çıxış edən Yasamal rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov müstəqilliyin qorunub-saxlanmasında Ümummilli Liderin xidmətlərini vurğulayaraq, ərazi baxımından kiçik bir dövlət olan Azərbaycanın Ulu Öndərin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində böyük uğurları ilə dünyanın diqqət mərkəzində olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən BDU-nun tarix fakültəsinin dekanı Azad Rzayev Ümummilli Liderin çoxşaxəli fəaliyyətindən danışıb.

Sonra partiya sıralarına qəbul olan şəxslərə üzvlük vəsiqələri təqdim olunub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Müasir Azərbaycanın Qurucusu” adlı sərginin iştirakçıları diplomla təltif ediliblər. BDU-nun tarix fakültəsinin bir qrup müəllim və tələbəsinə Heydər Əliyevə həsr olunmuş kitablar təqdim edilib.

AMEA-nın Tarix İnstititutu tərəfindən isə YAP Yasamal rayon təşkilatına Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar hədiyyə olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**